

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 12 (702) ■ 2 aprel 2014 www.vergiler.az Qiyməti: 40 qəp.


# Azərbaycan regionda təhlükəsizlik və sabitliyin qorunmasında mühüm rol oynayır

## *Prezident İlham Əliyev III Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmişdir*






*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Niderland Krallığının Haaqa şəhərində keçirilən III Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmişdir.*

Nüvə Təhlükəsizliyi Sammiti XXI əsrdə beynəlxalq birlik üçün ciddi təhlükə yaradan nüvə terrorçuluğunun qarşısını almağa həsr olunan yüksək səviyyəli zirvə görüşüdür. Əllidən çox ölkənin dövlət və hökumət başçılarının, müxtəlif beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri sammitdə nüvə təhlükəsizliyinin əsas məsələləri, o cümlədən dünyada təhlükəli nüvə materiallarının sayının azaldılması, radioaktiv mənbələrin təhlükəsizliyinin, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və digər məsələlər müzakirə olunmuşdur. Zirvə görüşünün mötəbər qonaqları Azərbaycanın sammitdəki fəal iştirakını yüksək qiymətləndirmişlər.

Niderland Krallığının Baş naziri Mark Rütte Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılamışdır. III Nüvə Təhlükəsizliyi Sammiti «Nüvəsiz dünya» videoçarxının nümayişi ilə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirak etdiyi zirvə görüşünü açıq elan edən Niderlandın Baş naziri Mark Rütte sammit iştirakçılarını salamlamışdır. 2010-cu ildə ABŞ Prezidenti Barak Obamanın təşəbbüsü ilə baş tutan ilk sammitdən sonra dünyada nüvə təhlükəsizliyinin təmin olunması sahəsində bir çox mühüm işlərin görüldüyünü deyən Mark Rütte bu məsələdə diplomatik səylərin gücləndirilməsinin əhəmiyyətli rol oynadığını diqqətə çatdırmışdır. Nüvə təhlükəsizliyinin təmin olunması ilə bəşəriyyətin gələcəyinin təminat altına alındığını deyən Niderlandın Baş naziri bu sahədə hökumətlər arasında əməkdaşlığın faydalı olduğunu bildirmişdir.

Bundan əvvəlki sammitə ev sahibliyi edən Koreya Respublikasının Prezidenti Pak Kın He çıxışında müasir dünyada nüvə təhlükəsizliyinin təmin olunmasının zərurətə çevrildiyini deyərək ölkəsinin bu məsələdə öz dəstəyini əsirgəmədiyini vurğulamışdır.

BMT baş katibi Pan Gi Mun Sammitin əhəmiyyətindən danışarkən onun ehtimal olunan nüvə terrorizminin qarşısının alınmasında xüsusi əhəmiyyəti ilə seçildiyini bildirmişdir. Nüvə təhlükəsizliyinin müasir dünyada qlobal xarakter daşıdığını deyən Pan Gi Mun BMT-nin bu sahədəki missiyasının səmərəli olduğunu vurğulamışdır.

Sonra sammit öz işini plenar müzakirələrlə davam etdirmiş, bu çərçivədə «Siyasətin ssenari əsasında müzakirəsi» mövzusunda iclas keçirilmişdir.

Martın 24-də axşam Niderland Kralı Əlahəzrət Villem-Aleksandr tərəfindən Haaqada III Nüvə Təhlükəsizliyi Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə qəbul və şam yeməyi təşkil olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Həmin gün dövlətimizin başçısı Haaqada ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Ceyms Uorlik (ABŞ), Jak For (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə görüşmüşdür. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Prezidenti İlham Əliyev martın 24-də Haaqada Niderland Krallığı Senatının üzvü Rene Van Der Linden ilə də görüşmüşdür. Görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunmuş, ölkələrimizin siyasi, iqtisadi, biznes və digər sahələrdə uğurlu əməkdaşlıq qurduqları vurğulanmışdır. Azərbaycan ilə Niderlandın təhsil və elm sahələrində də yaxşı əməkdaşlıq etdikləri bildirilmişdir.

Söhbət zamanı Azərbaycanın «ADA» Universiteti ilə Niderlandın Maastrixt Universiteti arasında əlaqələrin inkişafından razılıq ifadə olunmuşdur.

Dövlətmizin başçısı Haaqada Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukiya Amano ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında səmərəli əməkdaşlığın qurulduğu, ölkəmizin nüvə təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş olduğu bildirilmişdir. Yukiya Amano əməkdaşlığın daha da inkişaf etdirilməsi və radioaktiv tullantıların təmizlənməsi sahəsində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu demişdir. O qeyd etmişdir ki, Azərbaycanın nüvə təhlükəsizliyi ilə bağlı keçirilən tədbirlərdə və zirvə görüşlərində fəal iştirak etməsi məmnunluq doğurur.



Azərbaycan Prezidenti İlham Əliyev nüvə təhlükəsizliyinin ölkəmiz, region və dünya üçün əhəmiyyətinə toxunmuşdur. Dövlətimizin başçısı Ermənistanda seysmik zonada yerləşən və artıq köhnələrək müasir standartlara cavab verməyən Atom Elektrik Stansiyasının fəaliyyətinin bütün region üçün ciddi təhlükə doğurduğunu diqqətə çatdırmışdır.

Nüvə Təhlükəsizliyi Sammiti martın 25-də öz işini davam etdirmişdir. Sammitin ikinci iş günü nüvə təhlükəsizliyi sahəsində milli və beynəlxalq tədbirlərin əhəmiyyətinə həsr olunmuşdur. Bu sahədə dünya ölkələri arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyi vurğulanmışdır.

Sammitin plenar iclasında Azərbaycan Prezidenti İlham Əliyev çıxış etmişdir. Zirvə görüşü iştirakçılarını salamlayan dövlətimizin başçısı sammiti qəbul etdiyinə və göstərdiyi qonaqpərvərliyə görə Niderland hökumətinə minnətdarlığını bildirmişdir. Nüvə təhlükəsizliyi tədbirlərinin gücləndirilməsində Beynəlxalq Atom Enerjisi Agentliyinin mühüm rolundan danışan Prezident İlham Əliyev ölkəmizin nüvə təhlükəsizliyinin bir çox aspektləri üzrə bu Agentliklə fəal əməkdaşlıq etdiyini və Azərbaycanın iştirakçı dövlət olduğu Nüvə Terrorçuluğuna qarşı Mübarizə üzrə Qlobal Təşəbbüsün nüvə təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində Birləşmiş Millətlər Təşkilatının göstərdiyi səyləri dəstəklədiyini, bu yaxınlarda Azərbaycanın nüvə, kimyəvi və bioloji silahların və onların çatdırılma vasitələrinin yayılmaması sahəsində gördüyü növbəti tədbirlər haqqında yeni hesabatını Birləşmiş Millətlər Təşkilatına təqdim etdiyini diqqətə çatdırmışdır. O qeyd etmişdir ki, 2012-ci ildə BMT-nin Təhlükəsizlik Şurasında sədrliyi zamanı Azərbaycan beynəlxalq terrorçuluq, o cümlədən nüvə terrorçuluğu məsələlərinə aid müzakirələr təşkil etmişdir.

Nüvə və radioaktiv təhlükəsizliyin təmin edilməsi üçün əlavə tədbirlər görülməsinin vacibliyinə toxunan Prezident İlham Əliyev Azərbaycanın nüvə materiallarının qeyri-qanuni dövriyyəsində tranzit marşrutu kimi ölkənin ərazisindən istifadənin qarşısını almaq üçün böyük səylər göstərdiyini, bu məqsədlə beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq edərək beynəlxalq standartlara uyğun güclü qanunvericiliyə əsaslanan əhatəli milli ixraca nəzarət sistemini formalaşdırdığını vurğulamışdır.

Dövlətimizin başçısı bildirmişdir ki, bu yaxınlarda qəbul edilmiş Azərbaycanın ilk «Dəniz Təhlükəsizliyi Strategiyası»nda nüvə və digər kütləvi qırğın silahlarının və onların çatdırılma vasitələrinin, eləcə də aidiyyəti materialların yayılması dəniz təhlükəsizliyinə ən böyük hədələrdən biri kimi müəyyən edilir. Prezident İlham Əliyev təəssüflə qeyd etmişdir ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən davam edən işğalı və azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti səbəbindən ölkəmizin öz sərhədlərinin müəyyən hissəsinə lazımi səviyyədə nəzarət etmək imkanı yoxdur.

Bu cür vəziyyət transmilli mütəşəkkil cinayətkarlığa, nüvə və radioaktiv materialların qeyri-qanuni daşınmasına, həmçinin radioaktiv tullantı materiallarını basdırmaqla Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistan tərəfindən zəhərləndirilməsinə şərait yaradır. Daha sonra Azərbaycan Prezidenti Ermənistanın təxminən 40 il əvvəl tikilmiş və köhnəlmiş Atom Elektrik Stansiyasının yaratdığı təhlükədən danışaraq demişdir ki, bu elektrostansiya bütün region və yaxın qonşular üçün böyük təhdiddir. Oradakı hər hansı qəzanın nəticələri faciəli olacaqdır. Lakin beynəlxalq narahatlığı aradan qaldırmaq və bu elektrostansiyanı bağlamaq əvəzinə, Ermənistan həmin Atom Elektrik Stansiyasının fəaliyyətini 2026-cı ilə qədər davam etdirmək qərarına gəlib, baxmayaraq ki, o, yüksək seysmik zonada yerləşir və köhnəlmiş, olduqca təhlükəli texnologiyaya əsaslanır.

Azərbaycanın regionda təhlükəsizliyin və sabitliyin qorunmasında olduqca müsbət rol oynadığını deyən Prezident İlham Əliyev bildirmişdir ki, biz regionda və bütün dünyada nüvə təhlükəsizliyinin gücləndirilməsinə aid məsələlər üzrə beynəlxalq təşkilatlar və tərəfdaşlarımızla apardığımız əməkdaşlığın davam etdirilməsi, nüvə və radioaktiv materialların qeyri-qanuni dövriyyəsindən irəli gələn hədələrin azaldılması işinə sadiqik.

Çıxışının sonunda Azərbaycan dövlətinin başçısı Birləşmiş Millətlər Təşkilatı başda olmaqla beynəlxalq ictimaiyyətin davamlı səyləri ilə bütün çağırışların həll ediləcəyinə və daha təhlükəsiz dünya qurulacağına əminliyini ifadə etmişdir.

Sonra zirvə görüşünün «Nüvə təhlükəsizliyi sammitinin gələcəyi» mövzusunda qeyri-rəsmi iclası olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev sammit çərçivəsində Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeron və İtaliyanın Baş naziri Matteo Rentsi ilə görüşmüşdür. Söhbət zamanı Azərbaycan ilə bu ölkələr arasında ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılmışdır.

Prezident İlham Əliyev zirvə görüşü zamanı Türkiyə Prezidenti Abdullah Gül ilə də görüşmüşdür. Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin indiki vəziyyəti və perspektivi ilə bağlı müzakirələr aparılmışdır.

Zirvə görüşünün yekununda liderlər birgə foto çəkdirmişlər. Sonra dövlət və hökumət başçılarının şərəfinə işçi nahar verilmişdir. Zirvə görüşünün sonunda yekun Kommünike qəbul olunmuşdur.


2 Biznes mühitinin yaxşılaşdırılmasına təkan verəcək təkliflər hazırlanır

3 «ASAN ödəniş» nağdsız əməliyyatların həcmini genişləndirəcək

4 Beynəlxalq donorlar sənaye texnoparklarına sərmayə qoyacaqlar

5 Horizontal monitorinq

# Biznes mühitinin yaxşılaşdırılmasına təkan verəcək təkliflər hazırlanır

*Son illərdə ölkəmizdə sahibkarlıq subyektlərinin dövlət qeydiyyatının sadələşdirilməsi, bu sahədə müasir informasiya kommunikasiyalarının mütərəqqi yeniliklərinin tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, e-xidmətlərin geniş tətbiqi biznes mühitinin yaxşılaşdırılmasına şərait yaratmışdır.*

Prezident İlham Əliyevin hələ 30 aprel 2007-ci il tarixdə imzaladığı «Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında» fərman bu istiqamətdə mühüm sənədlərdən olmuşdur. Bu sənəd o dövrə qədər çoxpilləli biznesə başlamaq sahəsində mövcud problemlərin həlli, eyni zamanda süründürməçilik hallarının aradan qaldırılması sahəsində, sözün əsl mənasında, fundamental dəyişikliklərə yol açmışdır. Fərmanda vahid kodlaşdırmanın aparılması, biznes strukturlarının «bir pəncərə» - vahid qeydiyyat orqanı tərəfindən qeydiyyata alınması kimi məsələlər əksini tapmışdı. Fərmanda biznes strukturlarının fəaliyyəti üçün torpaq ayırmalarının, tikinti, yenidənqurma və bərpa işlərinə icazə verilməsi prosedurlarının sadələşdirilməsi, tikintinin ekspertizadan keçirilməsi sahəsindəki bürokratik əngəllərin aradan qaldırılmasına geniş imkanlar açılması kimi məsələlər ehtiva olunmuşdu.

Ötən illərdə sahibkarlıq subyektlərinin «bir pəncərə» prinsipi üzrə qeydiyyat sisteminin tətbiqi, habelə bu sahədə elektron xidmətlərin genişləndirilməsi sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının dinamikasına da müsbət təsir etmişdir. Vergilər Nazirliyi tərəfindən 2007-2013-ci illərdə həyata keçirilmiş bu islahatlar hüquqi şəxslərə və fərdi sahibkarlara vergi orqanına getmədən internet vasitəsilə vergi uçotuna dayanmaq imkanı yaratmışdır. 2008-2013-cü illərdə vergi orqanları tərəfindən ümumilikdə 338848 sahibkarlıq subyekti, o cümlədən 32017 kommersiya hüquqi şəxsi və 306831 fiziki şəxs «bir pəncərə» prinsipi əsasında qeydiyyata alınaraq bu mütərəqqi üsuldan yararlanmışlar. Həmin sistemin tətbiqindən sonra Azərbaycanın investisiya cəlbediciliyi əhəmiyyətli dərəcədə yüksəlmiş, sahibkarlığın inkişafı və biznes mühitinin təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Davos İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətlilik üzrə dünya miqyasında 148 ölkə arasında 39-cu yerdədir və ardıcıl olaraq 5 ildir ki, MDB ölkələri arasında birincidir. «Doing Business 2014» hesabatında isə Azərbaycan 189 ölkə arasında 70-ci yerə yüksəlmişdir.

Ölkə başçısının 2014-cü il 3 mart tarixli «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» fərmanı isə bu sahədə ötən illərdən başlanmış islahatların mütərəqqi davamını təmin edəcək mühüm sənəd kimi dəyərləndirilməlidir. Fərman Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması və ən qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə, sahibkarlığın inkişafına geniş imkanlar açır. Fərmanla müəyyənləşdirilmiş vəzifələr aidiyyəti dövlət qurumları ilə birlikdə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla sahibkarlıq sahəsində səkkiz istiqamət üzrə geniş islahatların aparılmasını tələb edir.

Preambula hissəsində qeyd olunduğu kimi, fərman ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsinə və əlverişli biznes mühitinin formalaşdırılmasına xidmət edir. Fərmana əsasən, Nazirlər Kabineti qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla iki ay müddətində Vergilər, İqtisadiyyat və Sənaye, Ədliyyə, Rabitə və İnformasiya Texnologiyaları nazirlikləri, habelə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) «bir pəncərə» prinsipinə uyğun olaraq elektron qeydiyyatı zamanı prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidirlər.

Sənəddə, həmçinin, tikintiyə icazələrin verilməsi sahəsində prosedur və müddətlərin azaldılması; elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulunun təşkili, prosedur, müddət və xərclərin minimuma endirilməsi; daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sahəsində prosedur, müddət və xərclərin azaldılması; kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsi; idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün müvafiq təkliflərin hazırlanması tapşırılmışdır.

İqtisadiyyat və Sənaye Nazirliyindən verilən məlumata görə, fərmanda qarşıya qoyulmuş tapşırıqların icrası ilə bağlı təkliflər paketi hazırlanmışdır və sənəd yaxın günlərdə aidiyyəti dövlət qurumlarına təqdim ediləcəkdir. Təkliflər paketi hazırlanarkən dünyadakı ən qabaqcıl və mütərəqqi təcrübələr əsas götürülmüşdür. Fərmana uyğun olaraq aparılacaq islahatlar çərçivəsində ikisi yeni olmaqla altı qanunun qəbulu nəzərdə tutulur. «Özəl kredit büroları haqqında» və «Təminatlı əqdlər haqqında» qanun layihələri kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsinə imkan verəcəkdir. «Özəl kredit büroları haqqında» qanuna əsasən, hüquqi və fiziki şəxslərin kredit tarixçəsini aparan özəl kredit büroları yaradılacaqdır. «Təminatlı əqdlər haqqında» qanunla isə mülkiyyət hüququ dövlət qeydiyyatına alınmayan əmlak və digər hüquqlar üzərində təminat hüquqlarının yaranması, qeydiyyatı, həyata keçirilməsi və s. məsələlərlə bağlı münasibətlər tənzimlənəcəkdir. Qeyd edilən qanunların qəbul olunması bank xidmətləri sferasının genişlənməsinə, eləcə də sahibkarların maliyyə xidmətlərinə çıxış imkanlarının daha da artırılmasına imkan yaradacaqdır. Bundan başqa, «Müflisləşmə və iflas haqqında» Qanunun təkmilləşdirilməsi məqsədilə Mülki Məcəlləyə, Şəhərsalma və Tikinti Məcəlləsinə və digər qanunvericilik aktlarına dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlanacaqdır.

*2008-2013-cü illərdə vergi orqanları tərəfindən ümumilikdə 338848 sahibkarlıq subyekti, o cümlədən 32017 kommersiya hüquqi şəxsi və 306831 fiziki şəxs «bir pəncərə» prinsipi əsasında qeydiyyata alınmışdır*

İqtisadiyyat və Sənaye Nazirliyindən bildirilir ki, ölkə başçısının fərmanı əsasında təkliflərin hazırlanması zamanı biznesin qeydiyyatı və investorların maraqlarının müdafiəsi sahəsində Yeni Zelandiyanın, tikintiyə icazələrin alınması sahəsində Honq-Konqun, elektrik təchizatı şəbəkələrinə qoşulma sahəsində İslandiyanın, əmlak hüquqlarının dövlət qeydiyyatı sahəsində Gürcüstanın, kreditlərin verilməsi sahəsində Malayziyanın, idxal-ixrac əməliyyatları sahəsində Sinqapurun, müəssisələrin bağlanması sahəsində Yaponiyanın təcrübəsi öyrənilmişdir.

İdxal-ixrac əməliyyatlarının aparılması sahəsində «bir pəncərə» sisteminin təkmilləşdirilməsi də diqqət mərkəzində olacaqdır. Xatırladaq ki, 2009-cu ilin 1 yanvarından Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipi tətbiq edilir. Yeni Gömrük Məcəlləsinin tətbiqi ilə idxal-ixrac əməliyyatlarında inzibati prosedurlar daha da sadələşdirilmişdir. «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» fərmana müvafiq olaraq, bu sahədə islahatlar davam etdiriləcəkdir. Bir sıra normativ-hüquqi aktlara dəyişiklik edilməklə idxal-ixrac zamanı gömrük nəzarətinin həyata keçirilməsi üçün cəmi iki sənəd - nəqliyyat sənədi və bəyannamə tələb olunacaqdır. Bununla da tələb olunan sənədlərin sayı idxalda on birdən ikiyə, ixracda isə səkkizdən ikiyə endiriləcəkdir. Ümumilikdə isə tələb olunan sənədlərin sayı 19-dan 4-dək azalacaqdır.

Sənəd əsasında hazırlanacaq təkliflər son nəticədə respublikamızda biznes mühitinin daha da liberallaşmasını, sahibkarlar üçün daha münbit fəaliyyət imkanlarının yaradılmasını ehtiva edəcək. Bütün bunlar isə ölkədə sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlərin ardıcıl və sistemli xarakter daşıdığını bir daha təsdiqləyir.

**Samir MUSTAFAYEV**

# Avropa İttifaqının Azərbaycanla əməkdaşlığının başlıca iqtisadi prioritetləri

*Avropa İttifaqı (Aİ) Avropa Qonşuluq Siyasəti ölkələrində tərəqqiyə dair növbəti illik hesabatını dərc edib. Sənədin Azərbaycanla bağlı hissəsində bildirilir ki, 2013-cü il Aİ və Azərbaycan arasında ikitərəfli münasibətlərdə həlledici il olub. Ən mühüm siyasi-iqtisadi hadisə viza rejiminin sadələşdirilməsi və mobillik üzrə tərəfdaşlıq sazişinin imzalanmasıdır.*

Ötən il Azərbaycanın Avropa ölkələri ilə neft-qaz layihələri üzrə strateji əməkdaşlığının güclənməsi, «Cənub qaz dəhlizi» çərçivəsində mühüm addımlar atılması, eləcə də TransAnadolu və «Şahdəniz-2» layihələrinə dair yekun sazişlərin imzalanması tərəflər arasında enerji sahəsində əməkdaşlığın daha da dərinləşməsinə səbəb olub. Bu sazişlər qarşıdakı dövrdə Aİ-Azərbaycan əlaqələrinin intensiv və daha geniş xarakter alması üçün əlverişli zəmin yaradır.

Hesabatda ölkəmizdə həyata keçirilən siyasi, iqtisadi, sosial, humanitar islahatlar barədə Aİ-nin mövqeyi açıqlanaraq bildirilir ki, bu tədbirlər idarəetmə sisteminin beynəlxalq standartlara çatmasına, Avropa iqtisadiyyatına inteqrasiyanın dərinləşməsinə təkan verib. Hesabatın iqtisadiyyatla bağlı bölməsində ölkəmizdəki makroiqtisadi mühit müsbət qiymətləndirilib. Avropanın əksər ölkələrinin borc böhranı fonunda kredit və investisiya reytinqlərinin aşağı düşdüyünə diqqət çəkən təşkilat Azərbaycanı MDB-də ən sabit ölkə hesab edir. Sabit resurslar və dövlət borcunun aşağı səviyyəsi 2013-cü ildə neftin qiymətlərinin artımı fonunda riskləri əhəmiyyətli dərəcədə yumşaldıb. Hazırda Azərbaycanın xarici borcu 4 milyard dollar təşkil edir ki, bu da ölkənin strateji valyuta ehtiyatlarının həcmindən 14 dəfə azdır.

Sənəddə «Şərq tərəfdaşlığı» çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivləri baxımından Aİ Avropa ölkələri ilə azad ticarət məkanının yaradılması sahəsində nəzərdə tutulan əməkdaşlıq, ticarət əlaqələrinin genişləndirilməsini əhatə edən islahatların davam etdirilməsi, ölkədə rəqabət qabiliyyətinin daha da yaxşılaşdırılması üçün görülməli olan tədbirlər ilə bağlı tövsiyələr də yer alıb. Azərbaycana azad iqtisadi zonaların yaradılması, ticarət əlaqələrinin dərinləşdirilməsi və investisiyaların enerji sektorundan kənar sahələrə yönləndirilməsinin təşviqi təklif olunub.

Aİ gələcək iqtisadi inkişaf, daha müasir idarəetmə, elektron xidmət vasitələrinin tətbiqi və insan inkişafı ilə bağlı davamlı layihələrdə maraqlı və açıq olduğunu bildirərək, Azərbaycana öz təcrübəsini və köməyini təklif edir. Bu məqsədlə ölkəmizdə həyata keçirilən islahatlara texniki və maliyyə dəstəyinin davam etdiriləcəyi vurğulanıb. Qarşıdakı dövrdə iqtisadi əməkdaşlığın əsas prioritetlərinə sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması, gömrük xidmətinin təkmilləşdirilməsi, davamlı iqtisadi inkişafa dəstək, iqtisadi qanunvericilik ilə inzibati praktikanın yaxınlaşdırılması, Aİ-Azərbaycan arasında enerji və nəqliyyat sektorlarında əməkdaşlığın gücləndirilməsi kimi vəzifələr daxildir. Güzəştli ticarət əlaqələri və açıq bazarın bərqərar olması, miqrasiya, eləcə də çirkli pulların yuyulmasına, kibercinayətkarlığa və korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq, yeni maliyyə mənbələrinin əldə olunması, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünə texniki kömək göstərilməsi də əməkdaşlığın başlıca istiqamətləridir.

Hesabatda respublikamızda investisiya və vergi mühitinin daha da yaxşılaşdırılması, vergi münasibətlərinin inkişaf etdirilməsi və beynəlxalq təcrübənin tədqiqinin genişləndirilməsi sahəsində əməkdaşlığın davam etdiriləcəyi də vurğulanıb. Son illərdə dinamik xarakter alan qarşılıqlı faydalı əməkdaşlıq vergiqoyma sahəsində bir sıra mühüm layihələrin həyata keçirilməsinə, ən mütərəqqi təcrübələrin öyrənilməsinə və tətbiqinə imkan yaradıb.

Aİ-nin «Yaxın qonşuluq siyasəti» və «Şərq tərəfdaşlığı» proqramlarında yaxından iştirak edən respublikamız iqtisadi islahatların dərinləşməsinə, o cümlədən vergi sahəsində müasir innovasiyaların tətbiqinə nail olub. Təşkilatın dəstəyi ilə tətbiq olunan «E-audit tvinninq» layihəsi Azərbaycanın vergi sisteminin təkmilləşdirilməsinə, elektron auditin qurulmasına və idarəetmənin daha da yaxşılaşmasına, risklərin idarə olunmasına müsbət təsir göstərib, ölkəmizin vergi sisteminin yeni, daha müasir texnologiyalara əsaslanan inkişaf mərhələsinə çıxmasına öz töhfəsini verib.

*Son illərdə dinamik xarakter alan qarşılıqlı faydalı əməkdaşlıq vergiqoyma sahəsində bir sıra mühüm layihələrin həyata keçirilməsinə imkan yaradıb*

**Elbrus CƏFƏRLİ**

"VERGİLƏR"
MÖVZUSUNDA
VII ÜMUMRESPUBLİKA
OLİMPİADASI
APREL AYININ 25-də
AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
İLƏ BİRLİKDƏ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİ VƏ
MAGİSTRANTLAR ARASINDA
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ
Heydər Əliyevin anadan olmasının
91-ci ildönümünə həsr olunmuş
olimpiada keçirir
Olimpiada test üsulu ilə təşkil olunacaq, qaliblər diplomlar və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar. İştirak etmək istəyən tələbə və magistrantlar ali məktəblərin rektoratlıqlarına müraciət edə bilərlər.
Sənədlər aprelin 18-dək qəbul edilir
Əlaqə telefonu: (+994 12) 403-87-92

# Avtomatik məlumat mübadiləsinin praktiki aspektləri

*Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində «Avtomatik məlumat mübadiləsinin praktiki aspektləri» mövzusunda seminar keçirilmişdir.*

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı IOTA) ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə keçirdiyi seminarda 25 ölkədən 40 nümayəndə iştirak etmişdir.

Seminarda müzakirə olunan məsələlərin daha yaxşı anlaşılması üçün iştirakçı dövlətlərin nümayəndələrindən ibarət qruplar təşkil edilmiş və həmin qruplar tərəfindən hazırlanmış avtomatik məlumat mübadiləsinin müsbət və mənfi cəhətləri, OECD tərəfindən mövzuya dair çap olunmuş materiallar, maliyyə məlumatlarının avtomatik mübadiləsini nəzərdə tutan FATCA adlandırılan Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act) və avtomatik məlumat mübadiləsinin standartları barədə müzakirələr aparılmışdır.

Seminarda Vergilər Nazirliyini Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq müqavilələr şöbəsinin əməkdaşı Səbinə Mirzəyeva təmsil etmişdir.

# «ASAN ödəniş» nağdsız əməliyyatların həcmini genişləndirəcək

*«ASAN ödəniş» sisteminin fəaliyyətə başlaması ölkədə nağdsız ödənişlərin həcminin və keyfiyyətinin yüksəlməsinə imkan verəcək. Azərbaycan Mərkəzi Bankı (AMB) sədrinin birinci müavini Alim Quliyevin bildirdiyinə görə, ölkə başçısının 2014-cü il 11 fevral tarixli fərmanına müvafiq olaraq, hazırda sadalədirilmiş ödəniş sisteminin yaradılması istiqamətində iş aparılır.*

AMB rəsmisinin sözlərinə görə, yeni sistem şəffaflığın və hesabatlılığın təmin olunmasına imkan yaratmaqla yanaşı, bir sıra üstünlüklərə də fərqlənəcək: müxtəlif növ inzibati cərimə və vəsaitlərin ödənişini təmin edən alət olacaq. Ödənişlər mobil qurğular və xüsusi terminallar vasitəsilə həyata keçiriləcək. Hazırda AMB «ASAN xidmət» mərkəzləri ilə birgə «ASAN ödəniş»in Hökumət Ödəniş Portalına inteqrasiyası istiqamətində iş aparır: «Biz bu istiqamətdə bank sektoru ilə də əməkdaşlıq edəcəyik. «ASAN ödəniş» sisteminin tətbiqi ölkədə nağdsız əməliyyatların inkişafı və stimullaşdırılması üzrə daha vacib addım olacaqdır».

Xatırladaq ki, «Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli fərmanında dəyişikliklər edilməsi barədə» 2014-cü il 11 fevral tarixli fərmanla «ASAN xidmət» mərkəzlərində göstərilən xidmətlərin sayının artırılması, habelə «ASAN ödəniş» sisteminin yaradılması məsələsi öz əksini tapıb. Fərmanda inzibati cərimə növündə inzibati tənbeh tətbiqetmə haqqında qərarın icra müddətinə nəzarət edilməsi və müddətlərin bitməsi barədə məlumatlandırılması, inzibati cərimələrin mobil telefon aparatları vasitəsilə elektron qaydada ödənilməsi məsələləri qoyulub. Bununla yanaşı, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Vergilər Nazirliyi ilə birlikdə «ASAN ödəniş» sisteminin təşkilini və fəaliyyətini təmin edəcək.

İnzibati cərimələrin yanacaqdoldurma məntəqələrində, avtomobil dayanacaqlarında, ticarət mərkəzlərində, eləcə də əhalinin intensiv istifadə etdiyi digər ictimai yerlərdə xüsusi ödəmə terminalları; yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə tətbiq edilən inzibati cərimələrin mobil telefon aparatları; məhkəmə qərarlarının icrası ilə əlaqədar ödənilməli olan vəsaitlərin isə xüsusi ödəmə terminalları ilə ödənilməsi nəzərdə tutulub.

İqtisadi və Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Vüqar Bayramov hesab edir ki, «Asan ödəniş» sisteminin yaradılması ölkədə şəffaflığın artırılması istiqamətində həyata keçirilən tədbirlərin uğurlu davamıdır. Yeni sistem vətəndaşların maraq və mənafelərinin təmin edilməsi baxımından bir sıra üstünlüklər vəd edir: «Bu, cərimə və rüsumların ödənilməsi prosesini sadələşdirəcək. Məsələn, hər hansı sürücü yol hərəkəti qaydasını pozduqda qəbul edilən inzibati cərimə barədə qərar və qayda pozuntusunun foto və ya video çəkilişi «ASAN ödəniş» sistemi vasitəsilə həmin sürücünün e-mail ünvanına və ya mobil telefon nömrəsinə göndəriləcək. «ASAN ödəniş» sistemi vətəndaşı cərimənin ödənilməsi müddətinin bitməsi barədə xəbərdar edəcək. Vətəndaşlar istənilən inzibati cəriməni heç bir dövlət orqanına getmədən mobil telefon vasitəsilə ödəmək imkanı əldə edəcək.

Bundan əlavə, cərimələrin digər alternativ ödəmə üsulu da nəzərdə tutulub: vətəndaşlar cərimələri ticarət mərkəzlərində, yanacaqdoldurma məntəqələrində, avtomobil dayanacaqlarında və əhalinin intensiv istifadə etdiyi digər ictimai yerlərdə quraşdırılmış xüsusi ödəmə terminalları vasitəsilə ödəyə biləcəklər. «ASAN ödəniş» sistemi, eyni zamanda, cərimə və digər pul vəsaitlərinin ödənilməsi barədə məhkəmə qərarlarını icra etmək üçün ödənişlərin məhkəmələrin inzibati binalarında və digər ictimai yerlərdə quraşdırılan xüsusi ödəmə terminalları vasitəsilə ödənilməsini təmin edəcək».




**«ASAN ödəniş» sistemi bütün dövlət orqanları tərəfindən tətbiq edilən inzibati cərimələri ödəmək imkanı yaradacaq**

Ekspertin fikrincə, cəriməni qısa müddət ərzində ödəyən şəxslər üçün müəyyən güzəştlərin nəzərdə tutulması mütərəqqi haldır. Onun sözlərinə görə, «ASAN ödəniş» sistemi vətəndaşa cərimə olunduğu barədə məlumatı operativ şəkildə əldə etməyə və cəriməni dərhal ödəməklə müəyyən güzəştlərdən yararlanmağa imkan verəcək: «ASAN ödəniş» sistemi bütün dövlət orqanları tərəfindən tətbiq edilən inzibati cərimələri ödəmək imkanı yaradacaq. Artıq həmin sistemin yaradılması üçün insitusional və praktiki tədbirlərin görülməsinə başlanılıb. Bu islahatlar bir neçə məqsədə xidmət edir: vətəndaşla dövlət orqanı əməkdaşı arasında birbaşa təması istisna edir, şəffaflığı və operativliyi təmin edir, korrupsiya və digər neqativ halların qarşısını alır. Hüquq qaydalarını pozan şəxslərin cəriməni ödəməkdən yayınma halları da aradan qalxır».

**S.MUSTAFAYEV**

# Səyyar vergi yoxlaması zamanı vergi ödəyicilərinin və yoxlayıcıların hüquqları

*«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa görə, yoxlama tədbirləri zamanı sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslərin hüquqlarının qorunması məqsədilə yoxlayıcı orqanların qarşısında müəyyən tələblər qoyulmuşdur.*

Tələblərin mahiyyəti yoxlanılan sahibkarların və yoxlayıcı orqanların hüquq və vəzifələrini, yoxlama zamanı tətbiq olunan prosedurların həyata keçirilməsi qaydalarını konkretləşdirməklə yoxlama prosesinin şəffaflığının təmin edilməsidir.

Səyyar vergi yoxlaması zamanı da vergi əməkdaşlarının və vergi ödəyicilərinin qanunvericiliklə bir çox hüquqları müəyyən olunmuşdur. Səyyar vergi yoxlaması - vergi orqanının vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət və vergi qanunvericiliyinə dəqiq riayət etmək vəzifəsindən irəli gələrək, vergi orqanı tərəfindən vergi ödəyicilərinin uçot sənədləri, vergi bəyannamələri, vergilərin hesablanması və ödənilməsi ilə bağlı digər sənədləri, vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan və digər bəlli mənbələrdən alınan məlumatlar, habelə vergi ödəyicisinin elektron daşıyıcılarındakı məlumatlar əsasında həyata keçirilən yoxlama növüdür.

### Vergi ödəyicilərinin hüquqları

Vergi qanunvericiliyində səyyar vergi yoxlaması zamanı vergi ödəyicilərinin bir çox hüquqları təsbit edilmişdir. Vergi ödəyiciləri yoxlama ilə bağlı tərtib edilən aktların (protokolların) və vergi orqanlarının qərarlarının surətini tələb etmək, vergilər və onların ödənilməsi qaydasını və şərtlərini tənzimləyən normativ-hüquqi aktları, vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi orqanlarının və onların vəzifəli şəxslərinin səlahiyyətləri haqqında əvəzsiz olaraq yazılı məlumat almaq imkanına malikdirlər. Həmçinin vergi orqanlarından və onların vəzifəli şəxslərindən vergi ödəyicisinə münasibətdə vergilər haqqında qanunvericiliyə riayət olunmasını tələb etmək, Vergi Məcəlləsinə və digər normativ-hüquqi aktlara uyğun olmayan aktların (qərarların) tələblərini yerinə yetirməmək, müəyyən edilmiş qaydada vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək vergi ödəyicilərinin hüquqlarına daxildir.

İş adamları qanunvericiliklə müəyyən edilmiş qaydada kommersiya (vergi) sirrinin qorunmasını, vergi orqanlarının və ya onların vəzifəli şəxslərinin qeyri-qanuni aktları (qərarları) və hərəkətləri (hərəkətsizliyi) nəticəsində dəymiş zərərin tam ödənilməsini qanunvericiliklə müəyyən edilmiş qaydada tələb edə bilərlər. Vergi ödəyicilərinin vergi yoxlamalarının aktları və digər materialları ilə tanış olmaq, vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergilərin hesablanması və ödənilməsi, habelə keçirilən vergi yoxlamalarının aktları üzrə öz rəyini bildirmək və qanunlarla müəyyən edilmiş digər hüquqlardan istifadə etmək hüququ var.

### Şikayət etmək hüququ

Səyyar vergi yoxlaması zamanı çıxarılan qərarla razı olmayan vergi ödəyicisi 3 ay müddətində yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) və (və ya) məhkəməyə şikayət edə bilər. Şikayətə yuxarı vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən İInzibati icraat haqqında» Qanunun tələblərinə əsasən baxılır, müvafiq qərar qəbul olunaraq şikayətçiyə təqdim edilir. Şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasının ödənilməməsi istisna olmaqla, şikayət edilən qərarın (aktın) və ya hərəkətin icrası dayandırılmır.

Şikayət edilən qərar (akt) və ya hərəkət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmadıqda şikayətə baxan vergi orqanı (vəzifəli şəxsi) onun icrasını tam və ya qismən dayandıra bilər. Vergi ödəyicisi şikayətin nəticələrinə görə qəbul olunmuş qərardan razı qalmadıqda məsələyə yenidən baxılması məqsədi ilə Vergilər Nazirliyində yaradılmış mübahisələrin məhkəmədənkənar həlli vasitəsi olan Apelyasiya Şurasına da müraciət etmək hüququna malikdir.

Vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsini yazılı şəkildə tələb etdikdə bu yoxlama vergi orqanlarının əvvəlki yoxlamanı keçirmiş vəzifəli şəxslərin iştirakı ilə keçirilə bilməz.

Məhkəməyə verilmiş şikayətlərə (iddia ərizələrinə) Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

### Vergi əməkdaşlarının hüquqları

Vergi Məcəlləsi ilə səyyar vergi yoxlaması zamanı vergi əməkdaşının müəyyən hüquqları təsbit olunmuşdur. Vergi əməkdaşı yoxlamanı həyata keçirən zaman vergilərin hesablanması və ödənilməsi ilə bağlı sənədləri, habelə mühasibat uçotu elektron formatda aparıldıqda elektron daşıyıcılarındakı məlumatların verilməsini, həmin məlumatlara birbaşa və ya parolu yoxlama müddətində istifadə etmək imkanını yaradılmasını tələb edə bilər. Həmçinin yoxlamaya aid məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onların vəzifəli şəxslərindən izahatlar, arayışlar, yazılı məlumatlar almaq, sənədləri və nümunə kimi əşyaları götürmək, əmlakın və pul vəsaitlərinin, xammal və sərvətlərin inventarizasiyasını aparmaq vergi əməkdaşının hüququdur. Vergilərin hesablanması zamanı Vergi Məcəlləsinin 14-cü maddəsinə uyğun qaydada bazar qiymətlərini və mənbəyi bəlli digər məlumatları nəzərə almaq, əlaqəli məlumatlara əsasən müəyyən etmək, vergi ödəyicisinin xərcləri, o cümlədən fərdi istehlakı üçün çəkilən xərcləri barədə rəsmi informasiyalar toplamaq vergi əməkdaşlarının səlahiyyətlərinə daxildir.

Vergi əməkdaşının maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək və ya cinayət xarakterli materialların aidiyyəti üzrə göndərilməsi üçün təkliflər vermək, mütəxəssisləri, ekspertləri, tərcüməçiləri və müşahidəçiləri yoxlamaya dəvət etmək ixtiyarı vardır. Vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını vergi ödəyicilərindən tələb etmək, zəruri məlumatların əldə edilməsi məqsədi ilə sorğular vermək və s. kimi hüquqlar da vergi əməkdaşlarına məxsusdur.

**Rəşad SADIQOV**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi uçotu və onun əhəmiyyəti

İstənilən vergi sistemində tətbiq olunan inzibatçılığın əsas elementlərindən birini vergi uçotu təşkil edir və onun həyata keçirilməsi hər bir ölkənin vergi qanunvericiliyi ilə tənzimlənir. Azərbaycan Respublikasının qanunvericiliyində də vergi uçotunu tənzimləyən normalar öz əksini Vergi Məcəlləsində tapmışdır. Vergi Məcəlləsinə əsasən, vergi orqanları vergi nəzarətini vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara (ərazilərə) baxış keçirməklə və bu Məcəllə ilə müəyyən edilmiş digər formalarda həyata keçirirlər. Vergi nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədi ilə vergi ödəyicisi olan hüquqi şəxslər olduqları yer (dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd olunmuş hüquqi ünvan) üzrə, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə, fərdi sahibkarlar və Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq bəyannamə verməli olan rezident fiziki şəxslər yaşadıqları yer üzrə vergi orqanlarında uçota alınırlar. Vergi Məcəlləsi ilə müəyyən edilmişdir ki, hüquqi şəxsin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxsin bu Məcəllə ilə vergi ödəməsi vəzifəsini şərtləndirən hallardan asılı olmayaraq, onlar vergi orqanında vergi ödəyicisi kimi uçota alınırlar.

Ümumiyyətlə, vergitutma sahəsində vergi uçotu dedikdə, vergi ödəyicilərinin və vergi agentlərinin vergi orqanlarında qeydiyyata alınması üçün təqdim etdikləri məlumatlar əsasında vahid uçot bazasının yaradılması ilə bağlı vergi qanunvericiliyində təsbit olunmuş və vergi orqanları tərəfindən həyata keçirilən tədbirlərin məcmusu nəzərdə tutulur. Vergi Məcəlləsinə əsasən, hüquqi şəxslər, onların filial və nümayəndəlikləri uçota alınmaq üçün ərizə ilə vergi orqanına müraciət etdikdə, müəyyən olunmuş qaydada təsdiq edilmiş nizamnamənin, rəhbərin təyin olunması və hüquqi şəxsin ünvanını təsdiq edən sənədlərin, habelə rəhbərin şəxsiyyətini təsdiq edən sənədin bir nüsxədə surətini və olduğu yer (ünvan) haqqında məlumatı vergi orqanına təqdim etməlidirlər. Ərizə vergi ödəyicisi və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən doldurulur. Ərizədə göstərilənlərin düzgünlüyünə vergi ödəyicisi (onun rəhbəri) cavabdehdir.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər uçota alınmaq üçün ərizə ilə birgə özünün şəxsiyyətini təsdiq edən sənədin surətini təqdim edir. Vergi ödəyiciləri olan fiziki şəxslər uçota alındıqda onların şəxsi məlumatlarına, o cümlədən onların adı, doğulduğu tarix və yer, cinsi, yaşadığı ünvan, şəxsiyyətini təsdiq edən sənədin məlumatları, vətəndaşlığı haqqında məlumat daxil edilir.

Digər uçot növlərindən fərqli olaraq, vergi uçotunun əsas xüsusiyyəti onun yalnız vergi ödəyicilərinə (hüquqi və fiziki şəxslər) və vergi agentlərinə münasibətdə həyata keçirilməsi ilə bağlıdır. Bununla yanaşı, nəzəriyyədə vergi uçotu aşağıda göstərilən xüsusiyyətlərlə səciyyələndirilir:

- vergi nəzarəti məqsədilə vergi orqanları tərəfindən həyata keçirilir;
- vergi öhdəliyinin yaranıb-yaranmamasından asılı olmayaraq həyata keçirilir;
- əsas elementləri (əsaslar, müddətlər, uçota alınmanın yeri və qaydası və s.) qanunvericiliklə müəyyən edilir;
- əsasını vergi ödəyicilərinin vahid reyestrinin aparılması, vergilərin hesablanması və ödənilməsi vəziyyətini əks etdirən sənədin tərtib olunması təşkil edir;
- vergi uçotu qaydalarının pozulmasına görə məsuliyyət vergi qanunvericiliyi ilə müəyyən olunur.

Qeyd etmək lazımdır ki, vergi ödəyicilərinin uçota alınması yalnız texniki prosedurlara riayət edilməklə sənəd məlumatlarının formal olaraq ödəyicilərin reyestrinə daxil edilməsini nəzərdə tutmur. Təcrübə göstərir ki, əslində, əsas vergi nəzarəti uçota alınma mərhələsində yerinə yetirilməlidir ki, vergi ödəyicilərinin reyestrinə yanlış məlumatlar daxil edilməsin. Çünki bu halda vergi inzibatçılığının keyfiyyətli və səmərəli olması əvvəlcədən təhlükə altına düşmüş olur.

Qeyd olunan problem daha çox hüquqi şəxslərin dövlət qeydiyyatı zamanı özünü göstərir. Buna misal olaraq «qeydiyyat ünvanı» anlayışında qeyri-müəyyənliyin olmasını, həmçinin müəssisənin fəaliyyətinin nəticələri üzrə təsisçilərin və onlar tərəfindən təyin olunmuş vəzifəli şəxslərin real məsuliyyətinin müəyyən edilməməsini göstərmək olar. Bunlar isə öz növbəsində hüquqi şəxslərin ictimai fayda üçün deyil, müxtəlif növ saxtakarlıqların törədilməsi məqsədilə yaradılmasına və bəzən belə hüquqi şəxslərin adı altında cinayətkar şəxslərin sərbəst fəaliyyət göstərməsinə gətirib çıxarır.

Beynəlxalq təcrübə göstərir ki, yanlış məlumatlar əsasında qeydiyyata alınmış müəssisələrdən daha çox vergidən yayınma, xərclərin şişirdilməsi və qazancın gizlədilməsi, ödəmə qabiliyyəti olmayan banklarda hesabların açılması üçün istifadə olunur. Yeni hüquqi şəxslərin yaradılmasına dair tələbatın artdığı bir dövrdə isə belə müəssisələrin qeydiyyatdan keçirilməsi ehtimalı artmış olur.

Hüquqi şəxslərin qeydiyyatı zamanı yol verilən neqativ halların, vergi və digər qanunvericilik aktlarının pozulmasının qarşısının əvvəlcədən alınması məqsədilə hüquqi və fiziki şəxslər tərəfindən qeydiyyata dair məlumatlar vergi orqanlarına təqdim edilərkən həmin məlumatların dürüst olmasına nəzarət gücləndirilməlidir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Sahibkarlıq fəaliyyətinin müvəqqəti dayandırılması

***Vergi ödəyicisi kimi öz sahibkarlıq fəaliyyətimi müvəqqəti dayandırmaq istəyirəm. Bunun üçün nə etməliyəm?***

Vergi Məcəlləsinin (VM) 16.3-cü maddəsinin birinci hissəsinə əsasən, vergi ilində vergi ödəyicisi sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdıqda, həmin fəaliyyətin və ya əməliyyatların dayandırılması günündən gec olmayaraq, vergi orqanına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada arayış təqdim etməlidir. Arayışda sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların dayandırılmasının müddəti göstərilməlidir. Azərbaycan Prezidentinin 30 avqust 2000-ci il tarixli 393 nömrəli fərmanına əsasən, həmin arayışın forması Vergilər Nazirliyi tərəfindən müəyyən edilir.

VM-in 16.3-cü maddəsinin ikinci hissəsində qeyd edilmişdir ki, vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrdə faktiki olaraq fəaliyyət göstərməsi müəyyən edildikdə, vergi ödəyicisinə bildiriş göndərilməklə sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrlər üzrə vergi orqanına hesabatlar təqdim etməsi tələb olunur.

Məcəllənin 16.4-cü maddəsinə əsasən, VM-in 16.3-cü maddəsinə müvafiq olaraq arayış təqdim edən vergi ödəyicilərinin əmlakı və (və ya) torpağı olduqda əmlak və (və ya) torpaq vergisinin hesabatları həmin Məcəllə ilə müəyyən olunmuş qaydada və müddətlərdə vergi orqanına təqdim edilir. 16.3-cü maddəyə müvafiq olaraq, sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandıran və bununla bağlı vergi orqanına müvafiq arayış təqdim edən vergi ödəyicilərinin əmlakı və (və ya) torpağı olduqda əmlak və (və ya) torpaq vergisinin hesabatlarını VM-in 201-ci və 208-ci maddələri ilə müəyyən olunmuş qaydada və müddətlərdə vergi orqanına təqdim etməlidirlər.

VM-in 201.5-ci maddəsinə əsasən, müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir. Məcəllənin 208.2-ci maddəsinə müvafiq olaraq, torpaq vergisini müəssisələr torpaq sahələrinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən illik hesablayır və hesablamaları mayın 15-dən gec olmayaraq vergi orqanına verirlər.

Fiziki şəxslər isə VM-ə müvafiq olaraq əmlak və torpaq vergiləri üzrə bəyannamə təqdim etmirlər.

VM-in 16.5-ci maddəsinə əsasən, Məcəllənin 16.3-cü maddəsində nəzərdə tutulan arayış vergi hesabatlarının verilməsi üzrə öhdəlik yarandığı gündən qüvvəsini itirir. 16.3-cü maddədə nəzərdə tutulan arayış (vergi ödəyicisi sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı halda, vergi orqanına təqdim etməli olduğu arayış) iki halda öz qüvvəsini itirir:

1) Vergi ödəyicisinin təqdim etdiyi arayışa əsasən həmin arayışda göstərilən sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların dayandırılması müddəti başa çataraq vergi ödəyicisinin vergi hesabatının verilməsi üzrə öhdəliyi yarandıqda;

2) Vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrdə faktiki olaraq fəaliyyət göstərməsi müəyyən edilərək vergi ödəyicisinə bildiriş göndərilməklə sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrlər üzrə vergi orqanına hesabatlar təqdim etməsi tələb edildikdə.

# Beynəlxalq donorlar sənaye texnoparklarına sərmayə qoyacaqlar

*2014-cü ilin Azərbaycanda «Sənaye ili» elan edilməsi və bu istiqamətdə müxtəlif stimullaşdırıcı addımların atılması, vergi-gömrük, investisiya və digər güzəştlərin tətbiq olunması xarici investorların, beynəlxalq maliyyə təşkilatlarının respublikamıza marağını artırıb.*

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) sənaye sektorunun Azərbaycan iqtisadiyyatında yüksək gəlir gətirən sahə olacağına dair açıqlama ilə çıxış edib və qarşıdakı illərdə bu sahə ilə bağlı nikbin proqnozlar irəli sürüb. Bankın Qafqaz və Mərkəzi Asiya üzrə direktoru Mayk Teylor bildirib ki, hazırda regionda Türkiyə, Qazaxıstan və Azərbaycanın sənaye sektorunun inkişafına dair konkret məqsədli proqramların həyata keçirilməsi müşahidə olunur. Bildirilib ki, sənaye sahəsinin inkişafı üçün Azərbaycan hökumətinin atdığı addımlar təqdir olunmalıdır: son dövrlər yüksək texnologiyalar və sənaye parklarına xarici investisiyaların artımı qeydə alınmaqdadır. Sənayeni sərmayələr üçün daha cəlbedici sahə kimi səciyyələndirən cənab M.Teylor onu da əlavə edib ki, hazırda Azərbaycanda mövcud olan makroiqtisadi sabitlik yeni sənaye proqramlarının uğurla həyata keçirilməsinə əlverişli zəmin yaradır.

Azərbaycanla AYİB arasında yeni əməkdaşlıq strategiyanın hazırlanacağı da diqqətə çatdırılıb. Bankın yeni strategiya çərçivəsində əsas sahə kimi sənaye layihələrinə daha çox maliyyə ayıracağı istisna olunmur. AYİB digər perspektiv sahələrə - İKT, turizm, kənd təsərrüfatı və digər bölmələrin inkişaf etdirilməsi ilə bağlı layihələrə də investisiya qoyacaq.

Qeyd edək ki, AYİB-lə bərabər, digər beynəlxalq təşkilatlar da Azərbaycanda həyata keçirilən sənaye texnoparkları layihəsinə böyük maraq göstərirlər. Artıq Cənubi Koreya, Sinqapur, Yaponiya, Türkiyə və digər ölkələrin investorları Azərbaycanda bu tipli layihələrin maliyyələşdirilməsində yaxından iştirak etmək niyyətlərini bildiriblər. Asiya İnkişaf Bankı da yeni sənaye modelinin həyata keçirilməsində əsas donor kimi çıxış etməyi nəzərdə tutur. Dünya Bankı Balaxanı texnoparkı layihəsində donor kimi iştirakla bağlı yekun qərar edib və bu sahəyə 47 milyon dollar investisiya qoyacaq.

Dünya Bankının Azərbaycan üzrə meneceri Larisa Leşşenko bildirib ki, zəştlərinin tətbiqinin müsbət təsir göstərdiyini bildirir. Nazirliyin şöbə müdiri Zaur Qasımovun fikrincə, 2013-cü ildən bəri texnologiya parkları ilə bağlı təşviqedici tədbirlərin görülməsi Avropa və Asiyanın aparıcı şirkətlərinin diqqətini cəlb edib. Həmin şirkətlərin nümayəndələrinin texnoparka səfərləri çərçivəsində birgə əməkdaşlıq məsələləri müzakirə olunub.



**Dünya Bankı Balaxanı texnoparkı layihəsinə 47 milyon ABŞ dolları həcmində investisiya qoyacaq**

saziş çərçivəsində növbəti 20 il müddətinə Balaxanı poliqonunun beynəlxalq standartlara müvafiq qaydada tam reabilitasiyası, Azərbaycanda bərk məişət tullantılarının idarə edilməsi üzrə milli strategiya sənədinin qısa, orta və uzunmüddətli tədbirlər planının hazırlanması, bu sahədə qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması, regional tullantı poliqonlarının və ötürücü məntəqələrin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması nəzərdə tutulur.

İqtisadiyyat və Sənaye Nazirliyi də (İSN) sənaye texnoparklarının inkişaf etdirilməsi üçün dövlət tərəfindən müxtəlif stimullaşdırıcı addımların atılması, o cümlədən vergi gü-

Hazırda xarici investorların bu sahəyə sərmayə qoymaq planları nəzərdən keçirilir.

Texnopark layihəsinə xarici sərmayəçilərin marağının yüksək olması bu modelin digər iri sənaye şəhərlərində də tətbiqinə əlverişli fürsət yaradır. İSN bu məqsədlə sənayenin 2014-2017-ci illərə dair inkişaf strategiyasında texnopark layihələrinə daha çox üstünlük verməyi planlaşdırır. Təşviqedici tədbirlərin görülməsi məqsədi ilə Gəncə və Mingəçevirdə sənaye texnoparklarının yaradılması üçün qiymətləndirmə işlərinin aparılması, texniki-iqtisadi hazırlıqlara başlanılması nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

# Biznes vizası

## yaxud iş adamları üçün «bir pəncərə» sistemi...

*Biznes sahəsində fəaliyyət göstərən şəxslərin daha asan viza almaları üçün sadələşdirilmiş viza rejiminə keçid çərçivəsində «bir pəncərə» sistemi tətbiq ediləcək.*

Hazırda elektron vizanın tətbiqi ilə əlaqədar görülən işlərin əsas komponentlərindən biri sərhəd-keçid məntəqələrində və miqrasiya sahəsində «bir pəncərə» mexanizminin hazırlanmasıdır. Dövlət Miqrasiya Xidməti digər müvafiq qurumlarla birgə bu mexanizmin hazırlanmasını yaxın vaxtlarda başa çatdırmaq niyyətindədir. Yeni qaydaların hazırlanmasında ictimai qurumların, Avropa İttifaqının (Aİ), Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham») və digər təşkilatların təklifləri də nəzərə alınacaq.

Qeyd edək ki, bu günlərdə Avropa Parlamenti Aİ ilə Azərbaycan arasında viza rejiminin sadələşdirilməsi barədə sazişi təsdiq edib. Bununla yanaşı, Azərbaycanın dövlət başçısı 2013-cü il noyabrın 29-da Vilnüsdə imzalanmış «Azərbaycan Respublikası və Avropa İttifaqı arasında vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında» sazişi təsdiq edib. Bununla da Azərbaycanla Aİ arasında yeni tarixi mərhələnin başlanması üçün daha bir əsas yaranıb. Avropa Parlamenti tərəfindən yaxın günlərdə readmissiya haqqında sazişin də ratifikasiya olunması nəzərdə tutulur. Bu prosesin ən son mərhələsi kimi elektron viza və mobil tərəfdaşlıqla bağlı qaydalar qüvvəyə minəcək.

Azərbaycan hazırda Aİ-nin irəli sürdüyü şərtlərin, demək olar ki, hamısını reallaşdırıb və sadələşdirilmiş elektron vizanın tətbiqi üçün güclü infrastruktur mövcuddur. Viza rejiminin sadələşdirilməsi sahəsində tələb olunan əsas şərtlər sərhədlərin təhlükəsizliyini və idarə olunmasının təkmilləşdirilməsini, miqrasiya proseslərinin tənzimlənməsini əhatə edir ki, bu da tam həllini tapıb. Sərhədlərin təhlükəsizliyinin icrası üçün mühüm şərtlərdən biri maşınla oxunan biometrik pasportların tətbiqinə başlanmasını nəzərdə tutur. Azərbaycanda ötən ilin dekabrından biometrik pasportların verilməsinə başlanıb. Biometrik identifikasiyanı tənzimləyən yeni qanunlar qəbul edilib, dövlətin miqrasiya proseslərinə nəzarəti gücləndirilib, sərhədkeçmə sənədlərinin fərdiləşdirilməsi üzrə informasiya resursları formalaşdırılıb.

Bu prosesdən gözlənilən nəticə xarici şirkətlərin Azərbaycana cəlb etdiyi işçi qüvvəsi üzrə tələb olunan sənədlərin sayının azaldılması, iş icazələri ilə bağlı qaydaların təkmilləşdirilməsi, iş adamları üçün banklar tərəfindən depozit məbləğlərinin ləğvidir. Yeni qaydaların tətbiqi qarşılıqlı xarakter daşıdığı üçün bu, Avropa ölkələrində bizneslə məşğul olan azərbaycanlı iş adamlarının da fəaliyyətinə müsbət təsir göstərəcək. İdxal-ixrac əməliyyatlarının sadələşdirilməsi ölkə vətəndaşlarının biznes fəaliyyətlərini genişləndirməsi və daha çox xarici partnyorlar qazanması baxımından da əhəmiyyətlidir. Yeni viza rejimi Avropanın Rəqabət Məcəlləsinin tətbiqini zəruriləşdirir ki, bunun sayəsində azad ticarət üçün daha əlverişli şərait yaranacaq.

Elektron vizanın tətbiqi qarşılıqlı investisiyaların həcminin artırılması, iqtisadiyyatın bir çox sahələrində yeni layihələrin icrasına başlanılması, ticarət, azad iqtisadi zonalar çərçivəsində birgə iqtisadi layihələr, gömrük güzəştləri, qarşılıqlı investisiyalar, əmək miqrasiyası və digər sahələr üzrə tədbirlərin həyata keçirilməsinə əlverişli imkanlar yaradır.

**E.CƏFƏRLİ**

# İcbari tibbi sığortanın tətbiqi gündəlikdədir

*1999-cu ildə qəbul olunmuş «Tibbi sığorta haqqında» Qanunla əhalinin tibbi sığortasının təşkilati, hüquqi və iqtisadi əsasları müəyyən edilir, tibbi sığortanın subyektləri arasındakı münasibətlər tənzimlənir.*

Qanuna görə, tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə ölkə əhalisinin tibbi və dərman yardımı almasına təminat verir.

İcbari və könüllü formada təsdiq olunan tibbi sığortanın bu gün yalnız könüllü forması üzrə sığorta müqavilələri bağlanır. İcbari tibbi sığortanın tətbiqi isə müəyyən səbəblərdən indiyədək yubadılıb. Ekspertlər hesab edirlər ki, səbəblərdən biri bu sığorta növünün tətbiqi mexanizminin çox mürəkkəb olması ilə əlaqəlidir. İcbari tibbi sığortanın qısa müddətdə həmını qane edə biləcək mexanizm olması zaman tələb edir.

Bu günlərdə Milli Məclisin Sosial siyasət komitəsinin son iclaslarının birində «Tibbi sığorta haqqında» Qanunun monitorinqini həyata keçirmək üçün xüsusi qrupun yaradılacağı, tibb sahəsində çalışan mütəxəssislərin iştirakı ilə parlamentdə icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar geniş dinləmələr keçirilməsi barədə qərar qəbul edilmişdi. «Tibbi sığorta haqqında» Qanun 1999-cu ildən qəbul olunduğunu nəzərə alan millət vəkilləri əvvəlki şərtlərlə indiki şərtlərin eyni olmadığını əsas gətirərək qanunun monitorinqinin keçirilməsini zəruri hesab etmiş, ona lazımi əlavə və düzəlişləri etməyin, tibb sahəsinin işçilərinin iştirakı ilə dinləmələrin keçirilməsinin vacib olduğunu bildirmişlər. Qanuna əlavə və dəyişikliklər edilməsi ilə bağlı Milli Məclisdə artıq qanun layihəsi hazırlanıb. Layihə Milli Məclisin Sosial siyasət komitəsinin iclasında da müzakirə olunub. Komitənin sədri Hadı Rəcəbli bildirib ki, dəyişikliklər qanun yaradıcılığı texnikası baxımından digər qanunlara uyğunlaşdırma məqsədi ilə edilir.



Dəyişikliklər barədə isə bildirilib ki, «Tibbi sığorta haqqında» Qanunun 13-cü maddəsinin ikinci hissəsi yeni redaksiyada veriləcək. Həmin hissəyə əsasən, tibbi sığorta təşkilatı sığorta əməliyyatları üzrə fəaliyyətinin sabitliyini təmin etmək üçün «Sığorta fəaliyyəti haqqında» Qanuna uyğun olaraq sığorta ehtiyatlarını formalaşdırmalıdır. Bundan əlavə, qanuna bir sıra texniki xarakterli dəyişikliklərin edilməsi də nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, icbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, icbari tibbi sığorta proqramına müvafiq həcmdə əhalinin tibbi və dərman yardımı almasını təmin edir.

İcbari tibbi sığorta sistemi üç mənbədən maliyyələşdiriləcək. Həmin mənbələr dövlət büdcəsi, işəgötürənlər və işçilərin ödənişləri hesabına olacaq. Bu sığortanın tətbiqi ilə ölkənin sığorta bazarının həcminin böyüməsinə əlverişli şərait yaranacağı proqnozlaşdırılır.

**AYTƏN**

# KÖMİS vasitəsilə aparılan əməliyyatların həcmi artıb

*Ölkədə elektron ödəniş sistemlərinin yaradılması və inkişaf etdirilməsi istiqamətində beynəlxalq maliyyə qurumlarının texniki və maliyyə dəstəyindən istifadə edilməklə həyata keçirilən islahatlar nəticəsində Mərkəzi Bank tərəfindən müasir texnologiya və proqram təminatlarına malik olan Milli Ödəniş Sistemi yaradılmışdır.*

2001-ci ilin əvvəllərindən Milli Ödəniş Sisteminin arxitekturasının əsasını təşkil edən Real Vaxt Rejimində Banklararası Milli Hesablaşmalar Sistemi (AZİPS), 2002-ci ilin sonlarında Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖHKS) yaradılaraq istifadəyə verilmişdir. Bu sistemlərin istismara verilməsi nəticəsində banklar arasında hesablaşmaların onlayn rejimdə aparılmasına, pul dövriyyəsinin sürətinin nəzərəçarpacaq dərəcədə artmasına, eyni zamanda kiçikhəcmli və təkrarlanan xırda ödənişlərin elektron daşıyıcılar əsasında həyata keçirilməsinə əlverişli zəmin yaradılmışdır.

Milli Ödəniş Sisteminin yaradılması və inkişaf etdirilməsi strategiyasının davamı kimi kommunal xidmət müəssisələrinin daxili informasiya sistemlərinin beynəlxalq standartlar əsasında təkmilləşdirilməsi və ödəniş sistemləri infrastrukturuna texnoloji inteqrasiyasının tamamlanmasının icrası ilə əlaqədar olaraq kommunal xidmət haqlarının yığımı üzrə Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi yaradılaraq 2008-ci ildən istismara verilmişdir. KÖMİS əhali və hüquqi şəxslərə göstərilən kütləvi xidmətlər üzrə haqların ən müasir ödəniş mexanizmləri vasitəsilə toplanmasını həyata keçirir. Sistem vasitəsilə KÖMİS-ə qoşulmuş kommunal xidmət müəssisələri üzrə ödənişləri həm nağd, həm də bankomatlarda və KÖMİS-in internet xidmətindən (www.apus.az) istifadə etməklə ödəniş kartları vasitəsilə həyata keçirmək mümkün olmuşdur. www.apus.az internet ünvanı vasitəsilə «Ödəniş xidmətləri» bölməsində qeydiyyatdan keçməklə borcları öyrənərək kart vasitəsilə ödənişləri real vaxt rejimində aparmaq mümkündür. Bununla yanaşı, sistemə qoşulmuş bankların və ya poçtun istənilən ödəniş məntəqəsində ödənişləri nağd şəkildə aparmaq olar. Həmçinin KÖMİS-ə qoşulmuş bankların ATM şəbəkəsindən istifadə etməklə də borc barədə məlumat alıb ödəniş etmək mümkündür.

2011-ci ildən KÖMİS vasitəsilə yol hərəkəti qaydalarının pozulması ilə əlaqədar törədilmiş inzibati xətalara görə cərimələr haqqında məlumat almaq və ödəniş etmək mümkündür. Dövlət büdcəsinə ödəniləcək vəsaitlərin vahid platforma üzərindən qəbul edilməsinin təmin edilməsi məqsədilə KÖMİS-in texniki və funksional imkanlarının genişləndirilərək Hökumət Ödəniş Portalı yaradılmışdır ki, bunun nəticəsində vergi və tədiyyə növləri üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq pay mülkiyyətçiləri və digər sığorta edənlərin ödənişlərinin qəbul edilməsinə imkan yaradılmışdır.

Hazırda 47 maliyyə qurumu üzrə ümumilikdə 1851 filialda real vaxt rejimində fəaliyyət göstərən ödəniş məntəqələrində 3340 bank əməliyyatçısı tərəfindən nağd şəkildə və POS-terminallardan istifadə edilməklə ödəniş kartları vasitəsilə xidmət haqları toplanılır. 13 kütləvi xidmət müəssisəsi üzrə 576 inzibati xidmət ərazisi əhatə edilməklə toplam olaraq 10267427 abonent haqqında məlumat mərkəzləşdirilmiş elektron bazaya yüklənmişdir. Dörd Kart Prosessinq Mərkəzi üzrə 47 bankın kart istifadəçiləri ATM şəbəkəsindən, POS-terminallardan, eyni zamanda KÖMİS-in internet servis xidmətindən istifadə etməklə borclar haqqında məlumatları ala və ödənişlərini apara bilirlər.

Sistemə qoşulmuş kütləvi xidmət müəssisələrinin hesabına qəbul edilən ödənişlər haqqında məlumatlar 30 saniyə ərzində həmin təşkilatlara çatdırılır. İştirakçı təşkilatların daxili informasiya sistemi ilə yaradılmış yüksək səviyyəli məlumat mübadiləsi interfeysi vasitəsilə bu təşkilatların elektron abonent bazasında baş verən dəyişikliklər mərkəzi informasiya bazasına ötürülür.

Ötən il ərzində sistemdə aparılan əməliyyatların həcmi 713 milyon manat, bu ilin yanvar-mart ayları ərzində isə 63 milyon manat olmuşdur.

**AYTƏN**

# Ərzaq təhlükəsizliyi

## *Azərbaycan bu sahədə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur*

*Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərti, dövlətin iqtisadi təhlükəsizliyinin əsas komponentlərindəndir. Ümumdünya Səhiyyə Təşkilatının hesabatında qeyd olunur ki, planetimizdə təxminən 3,7 milyard insan lazımi və balanslı səviyyədə qidalana bilmir və dünya əhalisinin yarıdan çoxunu əhatə edən bu rəqəm ildən-ilə artır.*

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) mütəxəsislərinin qənaətinə görə, hazırda qlobal istiləşmə və iqlim dəyişikliyi insanların ərzaq məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayan kənd təsərrüfatı sektoruna mənfi təsir göstərir. Kənd təsərrüfatını iqlim dəyişikliklərinə adaptasiya etmək qlobal ərzaq təhlükəsizliyi və ekosistemi qorumaq baxımından vacib olmaqla yanaşı, həm də çox xərc tələb edir.

Azərbaycanda əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Hələ 2001-ci ildə təsdiq edilmiş «Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Dövlət Proqramı» çərçivəsində görülmüş işlər ölkədə kənd təsərrüfatının inkişafına düzgün istiqamət vermişdir. Bunun nəticəsidir ki, Azərbaycan bir çox strateji ərzaq məhsulları üzrə tələbatını yerli istehsal hesabına ödəyir, eləcə də bəzi məhsulların xarici ölkələrə ixracını həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»ında əkinəyararlı torpaq sahələrindən səmərəli istifadə olunması, bitkiçiliyin, xüsusən taxılçılığın, meyvəçiliyin, tərəvəzçiliyin, üzümçülüyün, heyvandarlığın, o cümlədən ət və süd məhsulları istehsalının artırılması və s. nəzərdə tutulmuşdur. Bu tədbirlərin vaxtında və uğurla həyata keçirilməsi ölkədə ərzaq məhsullarının istehsalında artıma və keyfiyyətli və təhlükəsiz ərzaq məhsullarına tələbatın tam ödənilməsinə şərait yaradır.

Bu gün dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına və emal müəssisələrinə geniş texniki və maliyyə dəstəyinin göstərilməsi aqrar bölmənin inkişafında mühüm rol oynayır. «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli sərəncamına uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağının və mineral gübrələrin dəyərinin orta hesabla 50%-nin dövlət tərəfindən ödənilməsi, buğda səpininin, toxum və ting istehsalının subsidiyalaşdırılması bu sahədə məhsul istehsalına təkan vermişdir. Bununla yanaşı, damazlıq heyvanların idxal olunması və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50% güzəştlə, lizinq yolu ilə satılması həyata keçirilir.

Aqrar sahənin inkişafında Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə verilən güzəştli kreditlərin rolu xüsusi qeyd edilməlidir. Ötən 10 ildə fondun vəsaitləri hesabına 19 mindən çox sahibkarın ümumi dəyəri 2 mlrd. manat olan layihələrinin maliyyələşməsinə (45%-i qaytarılmış vəsait olmaqla)1,2 milyard manat güzəştli kredit verilmiş və bu layihələr hesabına 110 minədək yeni iş yeri yaradılmışdır. Kreditlərin 78%-i, açılan iş yerlərinin isə 81%-i regionların payına düşür.

Yeri gəlmişkən, kənd təsərrüfatında tətbiq edilən vergi güzəştləri də bu sahədə çalışan istehsalçıları stimullaşdıran əsas amillərdəndir. Hazırda kənd təsərrüfatı istehsalçıları torpaq vergisindən başqa bütün digər vergilərdən azaddırlar.

Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanda yoxsulluq səviyyəsi 2000-ci ildəki 49%-dən 2013-cü ildə 5,3 %-ə enmişdir. Bununla da əhalinin rifahı yüksəlmiş, ərzaq məhsulları üzrə istehlak səviyyəsi artmışdır. Əldə edilən nailiyyətlər ərzaq təhlükəsizliyi sahəsində keyfiyyətcə yeni mərhələnin başlamasına zəmin yaratmışdır.

> *Əldə edilən nailiyyətlər ərzaq təhlükəsizliyi sahəsində keyfiyyətcə yeni mərhələnin başlamasına zəmin yaratmışdır*

«Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının yekunlarına həsr olunmuş konfransda dövlət başçısı ərzaq təhlükəsizliyi ilə bağlı xüsusi göstərişlər vermiş və yeni mərhələdə qarşıda duran vəzifələri müəyyənləşdirmişdir. Həmin göstərişlərə uyğun olaraq hazırda qarşıda duran əsas vəzifələr ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin daha da yüksəldilməsi, səmərəli istehsal və satış infrastrukturunun yaradılması, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi və bütövlükdə aqrar sektorun rəqabət qabiliyyətinin yüksəldilməsi ilə bu sahədə ixracın coğrafiyasının genişləndirilməsi və həcminin artırılmasıdır.

**Rəşad SADIQOV**

# Horizontal monitorinq

## *İqtisadi və sosial amillərin qarşılıqlı əlaqəsinə əsaslanan yeni yanaşma*

Zaur CƏFƏRLİ

*Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi Xarici ölkələrin vergi sisteminin tədqiqi şöbəsində baş dövlət vergi müfəttişi*



*Müasir dövrdə qloballaşma, iqtisadi sərhədlərin aradan qalxması, informasiya texnologiyalarının və qanunvericiliyin inkişafı, sosial məsələlərin aktuallaşması ölkəmizdə vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin yeni müstəviyə keçməsinə şərait yaratmışdır. Vergi orqanı ilə vergi ödəyicisi arasında münasibətlərin rəqiblikdən partnyorluğa keçidi artıq günümüzün ən aktual məsələlərindəndir.*

Bu istiqamətdə beynəlxalq təcrübədə müxtəlif layihələr həyata keçirilmiş, vergi partnyorluğu ABŞ, Birləşmiş Krallıq, Niderland və s. ölkələrin vergi qanunlarında təsbit olunmuşdur. Vergi partnyorluğu sahəsində Niderland Krallığının «Horizontal monitorinq» layihəsi inkişaf etmiş ölkələrin ən effektiv metodu hesab olunur. Horizontal monitorinqin həyata keçirilməsində əsas məqsəd vergi orqanı ilə vergi ödəyicisinin əməkdaşlığı sayəsində vergi bəyannamələrinin təqdim olunması prosesinin keyfiyyətini yüksəltmək və vergitutma ilə bağlı məsələlərə aydınlıq gətirməkdir. Sosial baxımdan isə aparılan islahatlar vətəndaş və dövlət arasında münasibətlərə yeni yanaşma gətirməklə, qarşılıqlı inam və etibarı artırır. Horizontal monitorinq 3 əsas meyara - qarşılıqlı etibar, anlaşma və şəffaflığa əsaslanır.

Vergi ödəyicisi aşağıdakıları öz üzərinə götürür:

- vergi ödəmək üçün vergi qeydiyyatına durmağı;
- vergi bəyannamələrini vaxtında təqdim etməyi;
- bəyannamələrdəki məlumatların düzgün və tam olmasını;
- bəyannamələrdə göstərilmiş məbləği tam və vaxtında ödəməyi.

Vergi orqanı isə monitorinqin istənilən mərhələsində vergi ödəyicisinə qarşı nəzarət tədbirlərini şəffaf şəkildə həyata keçirir. Qabaqcadan vergi ödəyicisini müəyyən sahələrdə məlumatlandırmaqla neqativ halların yaranmasının qarşısını vaxtında alır. Əgər vergi ödəyicisi vergi orqanının etibarından sui-istifadə edərsə, nəzarət tədbirləri sərtləşdirilə və lazımi ölçü götürülə bilər.

2005-ci ildə Niderland Krallığında «Horizontal monitorinq» layihəsi əvvəlcə iri vergi ödəyicilərinə tətbiq edilməyə başlandı, bir il sonra isə kiçik və orta biznes (KOB) nümayəndələrinə də aid edildi. Hazırda KOB nümayəndələrinə münasibətdə vergi orqanı horizontal monitorinqi 3 istiqamətdə həyata keçirir:

- KOB nümayəndələrinin vergi məsləhətçiləri ilə əməkdaşlığı;
- KOB nümayəndələrinin daxil olduqları birliklərlə əməkdaşlığı;
- KOB nümayəndələrinə proqram təminatı və «onlayn» xidmətlər təqdim edən şirkətlərlə (provayder) əməkdaşlıq.

KOB nümayəndələrinə münasibətdə tətbiq olunan horizontal monitorinq vergi orqanı ilə əməkdaşlığa, qarşılıqlı etibara, şəffaflığa əsaslanmalı, real vaxtda işləməklə yaranacaq problemlərin qabaqcadan aradan qaldırılmasına və yoxlamaların sayının azaldılmasına yönəlməlidir.

Horizontal monitorinq vergi orqanı ilə vergi ödəyicisinin (və ya onun vasitəçisinin) daimi məlumat mübadiləsinə əsaslanır. Odur ki, bu mübadilə təhlükəsiz və etibarlı, istifadə olunan proqram təminatı sadə, məlumatlar rahat emal edilə bilən, sistemin özü isə şəffaf olmalıdır. Etibarlı proqram təminatı məlumatlardan sui-istifadənin qarşısını alır, daxili və xarici nəzarəti mümkünləşdirir və vergi ödəyicisi ilə etibarlı «vergi zənciri» yaratmağa xidmət edir.




### «Klaud sistemləri»

Qeyd olunan prinsiplərə əsaslanaraq, proqram təminatçıları ilə əməkdaşlıq vergi ödəyicisinə «klaud kompütinq» (cloud computing) imkanı yaradır: bu sistem veb əsaslıdır, vaxtdan və yerdən asılı olmayaraq «onlayn mühasibatlıq» aparmaq, məlumatların tam və davamlılığını təmin edən xidmət kimi proqramla (Software as a Service) təchiz etmək imkanı yaradır. «Klaud kompütinq» - hərfi mənada bulud kompüterləşməsi deməkdir. Burada məlumatlar lokal serverdə deyil, internetdə yerləşdirildiyindən məlumat itkisi ehtimalı sıfır səviyyədədir. Vergi ödəyicisinin kompüter, noutbuk, əsas server və s. informasiya daşıyıcıları məhv olsa da ilkin mühasibat sənədləri, hesab-fakturalar və s. maliyyə sənədləri internetdəki serverdə yerləşdiyindən, onlara heç bir zərər dəymir və vergi ödəyicisi istənilən vaxt onların bərpasını və ya dəyişdirilməsini həyata keçirə bilir. Provayderlərin özlərinin dedikləri kimi, bu sistem 5 cəhəti - təhlükəsiz, keyfiyyətli, etibarlı, hüquqi cəhətdən aydın və daimi olmağı özündə birləşdirir.

Niderland Vergi və Gömrük Administrasiyası proqram təminatçıları ilə münasibətləri tənzimləmək, vergi ödəyicilərinə daha keyfiyyətli elektron xidmətlərin təqdim edilməsi üçün birgə fəaliyyət göstərmək məqsədilə 18 aprel 2011-ci ildə 5 proqram təminatçısı ilə «Etibarlı POS (Point of Sale - satış nöqtəsi) sistemlərinin keyfiyyət göstəriciləri haqqında» Niyyət bəyannaməsi imzalamışdır. Burada qarşılıqlı əməkdaşlığın əsas istiqamətləri, açıq və ya qapalı «POS sistemlər» təqdim edən provayderlərin həmin bəyannaməyə azad şəkildə qoşulmaq imkanları bəyan olunur.

### NKA-ların «Klaud sistemləri»nə inteqrasiyası

«Klaud sistemlərinin» «POS sistemlərdə» tətbiqi, genişzolaqlı internet şəbəkəsinin inkişafı nəzarət-kassa aparatlarının (NKA) da bu sistemə qoşulmasına şərait yaratmışdır. Yeni sistemdə artıq NKA-nın fiskal yaddaşını internet serverdə yerləşən «klaud yaddaş» əvəz edəcək ki, bu da NKA-nın fiskal yaddaşına vurulmuş məbləğlərə sonradan müdaxilə edilməsinin qarşısını alacaq. Hazırda Niderland Vergi və Gömrük Administrasiyası bu sahədə problemin aradan qaldırılması məqsədilə NKA istehsalçıları ilə əməkdaşlıq etməkdədir və 30 istehsalçı ilə 15 sertifikatlaşdırılmış sistem üzrə əməkdaşlıq davam etdirilir. İstehsalçılar arasında «Abacus Retail», «Carian», «Centric», «Compaq», «Data Soft»,»Easy touch», «JBS», «Vectron», «Modis», «Newway», «Reda», «Polygon b.v.», «Torex», «Toshiba», «Sharp» və s. kimi dünyada məşhur elektrotexnika şirkətləri yer alır.




Beləliklə, informasiya texnologiyalarının inkişafı və vergi orqanı ilə vergi ödəyicisi arasında qarşılıqlı inama əsaslanan «Horizontal monitorinq» çərçivəsində vergi ödəyicisi vergi orqanı, vergi məsləhətçisi, kassa aparatı istehsalçısı ilə ayrılıqda əlaqə saxlamır, bu əlaqə qarşılıqlı surətdə təşkil olunmaqla vergi orqanının da yaxın iştirakını təmin edir. Vergi orqanı əməkdaşlığın istənilən mərhələsində vergi ödəyicisinin yanında, onunla partnyor kimi fəaliyyət göstərir. Vergi ödəyicilərinin vasitəçiləri, vergi məsləhətçiləri partnyorluq prosesinə cəlb olunmaqla ortaya çıxması mümkün olan problemlər birgə aradan qaldırılır ki, bütün bünlar «könüllü əməletmənin» səviyyəsinin yüksəlməsinə xidmət edir.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Fiziki şəxslərin əmək münasibətlərindən kənar mülki-hüquqi müqavilə çərçivəsində işləməsinin auditi

**Əvvəli ötən sayımızda**

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə görə əmək müqaviləsi (kontraktı) - işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir (3-cü maddə, 5-ci bənd). Əmək müqaviləsinə görə, işəgötürən işçiyə müəyyən olunmuş işi verməyi və bu işə uyğun olaraq zəruri əmək şəraiti yaratmağı, vaxtında və tam qaydada əməkhaqqı ödəməyi, işçi isə ona verilən işi yerinə yetirməyi və müəssisənin daxili nizam qaydalarına əməl etməyi öhdəsinə götürür. Əmək qanunvericiliyi əmək müqaviləsi bağlamış işçilərə geniş hüquqlar və təminatlar verir. İşçilərə ölkə üzrə müəyyən olunmuş əməkhaqqının minimum məbləğindən, yəni 105 manatdan az olmayaraq əməkhaqqı, məzuniyyət haqları, müvəqqəti əmək qabiliyyətini itirdikdə müavinət, iş vaxtından artıq işlərə görə əlavə ödənişlər verilməlidir.

Mülki-hüquqi müqavilənin bağlanmasının hüquqi əsasları isə Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir (maddə 14, 389). Bu müqavilələrə Mülki Məcəlləyə uyğun olaraq bağlanılan alqı-satqı, dəyişmə, icarə, podrat, tapşırıq, saxlama və sair müqavilələr aiddir. Bu müqavilələr üzrə (öhdəliyə əsasən) bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və ya müəyyən hərəkətlərdən çəkinməlidir.

Müəssisə daxilində əməyin, işin təşkili ilə bağlı olan əlamətlərin, eləcə də müəssisədaxili mövcud vəziyyətin xarakteri qanunvericiliyə əsasən yol verilən iki növ müqavilədən birinin bağlanmasını mümkün edir. Məsələn, müəyyən peşə və ya ixtisas üzrə görülən iş və ya göstərilən xidmət sistematik və davamlı xarakter daşıyırsa, işçi müəssisənin daxili əmək qaydalarına tabe olmalıdırsa, işçi başqa işçilərlə birlikdə əməkhaqqı cədvəli üzrə maaş almalıdırsa, işçi əmək qanunvericiliyinə uyğun olaraq konpensasiyalar almalıdırsa və imtiyaz və təminatlardan istifadə etmək hüququ yaranırsa, deməli, fiziki şəxslə, yəni muzdlu işçi ilə mütləq əmək müqaviləsi bağlanmalıdır. Əgər konkret işlərin görülməsi, yaxud xidmətlərin göstərilməsi müqavilə əsasında həyata keçirilirsə və birdəfəlikdirsə, uzunmüddət davam etmirsə, fiziki şəxs öz işini özü müəyyən edir və müəssisədaxili əmək qaydalarına tabe deyildirsə, fiziki şəxsə ödəniş son nəticəyə uyğun olaraq verilirsə, həmçinin VÖEN təqdim edirsə, deməli, fiziki şəxslə mülki-hüquqi müqavilə bağlanıla bilər.

İşqəgötürən düşünə bilər ki, mülki-hüquqi müqavilə əmək müqaviləsindən fərqli olaraq, onun üzərinə çoxsaylı öhdəliklər qoymur. Məsələn, əmək qanunvericiliyi əmək müqaviləsi bağlamış işçilərə geniş hüquqlar və təminatlar verir. Əmək müqaviləsi ilə işləyən işçini işəgötürənin mülahizələri ilə işdən azad etmək olmaz. Əmək müqaviləsinə işəgötürənin təşəbbüsü ilə xitam verilərkən qanunvericilikdə əks olunmuş qayda və şərtlərə əməl olunmalıdır. Əks halda, işçi fərdi əmək mübahisəsini öz xeyrinə həll etmək üçün müxtəlif müdafiə imkanlarından, o cümlədən məhkəmə mexanizmindən istifadə edə bilər. İşçi ilə bağlanılan əmək müqaviləsinə xitam verilərkən işəgötürən bunu mütləq bir sıra sənədlərlə rəsmiləşdirməli və işçinin əmək kitabçasında müvafiq qeydlər etməklə işdən çıxan gün ona təqdim etməlidir.

Lakin mülki-hüquqi müqavilə bağlamış fiziki şəxslərə əməyin (muzdun) ödənilməsi, işlərin yerinə yetirilmə müddətləri ilə bağlı praktiki olaraq istənilən şərtləri qoymaq mümkündür. Məsələn, sifarişçi podrad müqaviləsinə əsasən fiziki şəxsə (icraçı fərdi sahibkara) hər hansı xidməti göstərmək, hər hansı əşyanı hazırlamaq, təmir etmək, emal etmək və s. həvalə edir. İcraçı (podratçı) isə öz növbəsində həmin işi (xidməti) müqavilədə nəzərdə tutulan müddət ərzində və müqavilənin digər şərtlərinə uyğun olaraq yerinə yetirərək sifarişçiyə təhvil verməlidir. Sifarişçi isə öz növbəsində müvafiq ödənişi həyata keçirməlidir. Bu müqavilə praktik olaraq bütün təsərrüfat fəaliyyətini əhatə edə bilər. Müqavilə həmişə görülən işin maddi nəticəsi ilə bağlı olmalıdır, müqavilədə mütləq işin başlanmasının və başa çatmasının müddətləri göstərilməlidir, podratçıya ödəniləcək məbləğ müqavilədə əks olunmalıdır, işlərin qəbulu və nəticənin təhvil verilməsi müvafiq aktla həyata keçirilməlidir.

Unutmaq olmaz ki, əmək müqaviləsinin məqsədli şəkildə mülki-hüquqi müqavilə ilə əvəzlənməsi işçinin hüquqlarının pozulması kimi qiymətləndirilə bilər və ya bu hal işəgötürənin üzərinə məsuliyyət qoya, həmçinin işəgötürənin cəzalanması ilə nəticələnə bilər.

Hər bir halda işəgötürən və ya sifarişçi işləmək üçün ona müraciət edən fiziki şəxslə hər hansı müqavilə bağlamazdan əvvəl, hətta qanunverici imkanların olmasına baxmayaraq, fiziki şəxsin mənafelərinə zidd hərəkətlərdən çəkinməli və vicdanla yanaşaraq fiziki şəxsə bağlanılacaq (ona təklif ediləcək) müqavilə haqqında geniş məlumat verməklə onun öz iradəsini ortaya qoymasına nail olmalıdır.

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**4-cü MƏRHƏLƏ (davamı)**

Hörmətli oxucular, bir daha xatırlatmaq istəyirik ki, qəzetin 05.03.2014-cü il tarixli 09 (699)-cu, 12.03.2014-cü il tarixli 10 (700)-cu və 19.03.2014-cü il tarixli 11 (701)-cu sayında Baş kitabın tərtib olunması ilə bağlı tövsiyələrimizi sizə təqdim etmişdik və bu, davam edir. Nəzərinizə çatdıraq ki, Baş kitabın tərtib olunması qəzetin 05.02.2014-cü il tarixli 05 (695)-ci sayında, 19.02.2014-cü il tarixli 07 (697)-cü sayında və 26.02.2014-cü il tarixli 08 (698)-ci sayında göstərilən 49 sayda əməliyyata verilən ikili yazılışı əks etdirən əməliyyat jurnalı əsasında həyata keçirilir. Lakin sınaq balansının hazırlanması üçün əməliyyat jurnalında əks etdirilən 49 sayda əməliyyatın hələlik yalnız 45-ni nəzərə alacağıq və həmin 45 əməliyyat çərçivəsində Baş kitabı tərtib edəcəyik (yəni, fərz edək ki, 46, 47, 48 və 49-cu əməliyyatlar hələ məlum deyil). Baş kitab işləndikdən sonra sınaq balansı tərtib olunacaqdır. Baş kitabın tərtib olunması üzrə tövsiyələrimizi davam etdiririk (əməliyyatlar ümumi xarakter daşıdığına görə, tarixləri əks etdirməyəcəyik, tarix yerində şərti olaraq əməliyyatın №-ni qeyd edəcəyik):

**№ 601, «Satış»**
(hesabın №-si ve adı)

| № | Əmeliyyatın mezmunu | Döwriyye | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | DEBET | KREDİT | DEBET | KREDİT |
| | 01.01.2014-cü il tarixe qalıq | | | | 0 |
| 29 | Alıcılara mal satılmışdır - satış deyeri ile (71000 eded, vahidinin satış qiymeti 5,40 manat) | | 383400 | | 383400 |

**№ 701, «Satışın maya deyeri»**
(hesabın №-si ve adı)

| № | Əmeliyyatın mezmunu | Döwriyye | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | DEBET | KREDİT | DEBET | KREDİT |
| | 01.01.2014-cü il tarixe qalıq | | | | 0 |
| 30 | Satılmış malın alış deyeri (71000 eded satılıb, vahidinin orta alış qiymeti ile hesablamaq) | 273350 | | 273350 | |

**№ 711, «Kommersiya xercleri»**
(hesabın №-si ve adı)

| № | Əmeliyyatın mezmunu | Döwriyye | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | DEBET | KREDİT | DEBET | KREDİT |
| | 01.01.2014-cü il tarixe qalıq | | | | 0 |
| 17 | Mağazada işleyen satıcılara emek haqqı hesablanmışdır | 13000 | | 13000 | |
| 21 | Mağaza sahesi üzre mecburi sosial sığorta haqqı hesablanıb (emek haqqının 22 %-i qeder) | 2860 | | 15860 | |
| 22 | Elektrik enerjisi xerci hesablanmışdır (mağaza sahesinde elektrik enerjisi istifade olunmuşdur) | 1500 | | 17360 | |
| 24 | Su serfi xercleri hesablanmışdır (mağaza sahesinde su istifade olunmuşdur) | 700 | | 18060 | |
| 44 | Azalan qalıq metodu üzre amortizasiya hesablanıb - avadanlıq (70000 x 25%) | 17500 | | 35560 | |

**№ 721, «İnzibati xercleri»**
(hesabın №-si ve adı)

| № | Əmeliyyatın mezmunu | Döwriyye | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | DEBET | KREDİT | DEBET | KREDİT |
| | 01.01.2014-cü il tarixe qalıq | | | | 0 |
| 5 | Bank xidmeti xercleri hesablanıb | 190 | | 190 | |
| 16 | İnzibati sahede işleyen işçilere emek haqqı hesablanmışdır | 5000 | | 5190 | |
| 20 | İnziabti sahe üzre mecburi sosial sığorta haqqı hesablanıb (emek haqqının 22 %-i qeder) | 1100 | | 6290 | |
| 25 | Qaz serfi hesablanmışdır (ofisde qaz istifade olunmuşdur) | 900 | | 7190 | |
| 27 | İcareye götürülmüş ofis binasına göre icare haqqı hesablanmışdır | 2500 | | 9690 | |
| 31 | Telefon danışıq haqqı hesablanıb | 270 | | 9960 | |
| 39 | Defterxana malları ofisde istifade edilmişdir | 150 | | 10110 | |
| 45 | Azalan qalıq metodu üzre amortizasiya hesablanıb - mebel (25000 x 20%) | 5000 | | 15110 | |

**№ 751, «Maliyye xercleri»**
(hesabın №-si ve adı)

| № | Əmeliyyatın mezmunu | Döwriyye | | Son qalıq | |
|---|---|---|---|---|---|
| | | DEBET | KREDİT | DEBET | KREDİT |
| | 01.01.2014-cü il tarixe qalıq | | | | 0 |
| 32 | Alınmış kredite göre kredit faizi hesablanıb (yeni, ödenilmeli olan kredit faizi) | 12660 | | 12660 | |

**Davamı növbəti sayımızda**

vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

*Sahibkar Həsən Hüseynovun çörəyi çörəkbişirmə müəssisəsi olan «Bərəkət» firmasından çıxırdı. Əvvəllər yaxınlıqdakı ərazilərin sakinlərinin çörək təminatını həll edən firmanın imkanları getdikcə artmış və təhsil, səhiyyə, kommunal xidmət və digər dövlət təşkilatları da «Bərəkət»lə əməkdaşlıq etməyə başlamışdı. Cəmi bir il ərzində firma yerləşdiyi Yevlax rayonunda özünə xeyli müştəri toplamışdı. Lakin firmanın qazancının artması Həsən Hüseynovu vergi qaçaqçılığından çəkindirmədi. O, vergi bəyannamələrini saxtalaşdıraraq halalına haram qatdı.*

Uzun müddət vergiləri normal ödəyən, hesabatları vaxtında təqdim edən H.Həsənovun son dövrlərdəki fəaliyyəti vergi orqanlarını da şübhələndirdi və aparılan yoxlamalar şübhələrin əsaslı olduğunu təsdiqlədi. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılmış araşdırmalar zamanı məlum oldu ki, H. Hüseynov «Bərəkət» firmasının mühasibat sənədlərinə gəlirlər və xərclər barədə bilə-bilə təhrif olunmuş məlumatlar daxil etməklə 8734,54 manat məbləğində mənfəət vergisini dövlət büdcəsinə ödəməyib. Bundan başqa, sahibkar digər vergilərdən yayınmaqla, ümumilikdə 9281,54 manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən yayınıb. Bununla da Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.7 və 130.1-ci maddələrinin tələblərini pozduğuna görə onun Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi açıldı.

İstintaq zamanı sahibkar müxtəlif vasitələrdən istifadə etməklə yol verdiyi qanunsuzluqları boynundan atmağa çalışırdı. İddia edirdi ki, «Bərəkət» firması Lətifə Heydərova, Tərlan Quliyeva, Sevil Ağayeva, Nəcibə Abbasova, Elmira Əliyeva, Fərqanə Həsənova, Ramiz Hüseynov və Kərim Abdullayev tərəfindən təsis olunub, vergidən yayınma hallarına da onlar yol veriblər. Lakin araşdırmalar zamanı məlum oldu ki, həmin şəxslərin adları sənədlərdə təsisçi kimi rəsmiləşdirilsə də, müəssisənin fəaliyyəti ilə heç bir əlaqələri yoxdur. «Bərəkət» firmasının hesab-fakturalarında, qəbzlərində və digər mühasibat sənədlərində Həsən Hüseynovun imzası var. Firmanın müştəriləri də aldıqları mallara görə pulu bu şəxsə ödədiklərini etiraf etdilər. İş üzrə dindirilmiş şahidlərin ifadələri və digər maddi sübutlar əsasında sahibkarın qanunsuz əməlləri təsdiq olundu. Bundan sonra H.Hüseynov törətdiyi əməlləri boynuna alaraq vergi orqanına təqdim olunmuş bəyannamələrin özü tərəfindən tərtib edildiyini, firmanın adından hesablaşma hesabı açdığı banklardan pulları özü çıxardığını və müəssisənin möhürünü, ştampını həmişə özündə saxladığını bildirdi.

Yevlax Rayon Məhkəməsinin qərarına əsasən, Həsən Hüseynov 2 il müddətinə azadlıqdan məhrum edilib.

**ELBRUS**

vergi təqvimi

**APREL**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
15 aprel - «(1) və (2)».
21 aprel - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi:** Müəssisənin yol vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Vergilərin artırılması turizm sektoruna ziyan vuracaq

*Estoniyanın turizm sektorunda işləyən sahibkarlar vergilərin dəyişdirilməsi barədə koalisiya danışıqlarında müzakirə olunan təklifləri tənqid edirlər.*

Vergilərin dəyişdiriləcəyi təqdirdə mehmanxanalardan dövriyyə vergisinin dərəcəsi indiki 9%-dən 20%-ə yüksələcək. Estoniya Otellər və Restoranlar İttifaqı (EHRL) İdarə Heyətinin sədri Verni Loodmaanın fikrinə görə, dövlətin büdcə vəsaitlərinə ehtiyacını ödəmək məqsədilə vergi dərəcəsinin yüksəldilməsi bütün turizm sektoru üçün mənfi nəticələrə səbəb olacaq.



Verni Loodmaa qeyd etmişdir ki, Avropa ölkələrində həm dövlət, həm də regional siyasət səviyyələrində turizm sektoru üçün vergi güzəştlərinin tətbiqinin zəruriliyi dərk edilir. Avropa İttifaqının 28 ölkəsindən yalnız dördündə mehmanxana xidmətləri üzrə dövriyyə vergisinə güzəştlər tətbiq edilmir. 1 yanvar 2015-ci ildən Litvada da mehmanxana müəssisələrinin xidmətləri üzrə dövriyyə vergisinin dərəcəsi aşağı salındığına görə, bu ölkələrin sayı azalacaq. Loodmaa əlavə etmişdir: «Buna parlaq nümunə kimi mehmanxana müəssisələrinin vergi yükünü ağırlaşdıran, sonra isə məhvedici nəticələrini görüb bundan imtina edən İrlandiya və Latviyanın təcrübəsinə diqqət yetirməliyik. Estoniya özgələrin səhvini təkrar etməməlidir».

Verni Loodmaanın sözünə görə, turizm sektorunun inkişafı sayəsində Estoniyada yeni iş yerləri yaradılmışdır, ölkəyə gələn əcnəbilərin və daxili turistlərin sayının artması isə dövlətin və yerli özünüidarəetmə orqanlarının gəlirlərini çoxaldır. EHRL İdarə heyətinin sədrinin proqnozuna əsasən, vergi dərəcəsinin yüksəldilməsi Estoniyada turizm xidmətlərinin qiymətini bahalaşdıracaq, ilk növbədə yerli turistlərin fəallığını zəiflədəcək və bununla da paytaxtdan kənarda fəaliyyət göstərən mehmanxanaların gəlir bazasını daraldacaq. «Vergilərdə dəyişikliklər edilməsinə dair dialoq, sözsüz ki, zəruridir, amma dövriyyə vergisinin artırılması birtərəfli, turizm sektorunda müzakirə olunmamış çiy təşəbbüsdür».

Estoniya Turizm Firmaları İttifaqının prezidenti Sven Liokenenin rəyincə, dövriyyə vergisinin dərəcəsinin yüksəlməsi ölkədə mehmanxana və turizm sektorunun inkişafını xeyli ləngidəcək.

Turizm sahəsində fəaliyyət göstərən sahibkarlar isə qeyd edirlər ki, Estoniyada vergi dərəcəsinin mümkün dəyişməsindən qonşu ölkələr faydalanacaq: eston otelləri qiymətləri bahalaşdırmağa məcbur olacaqları halda, onlarda dövriyyə vergisi az olduğuna görə, qiymətləri sabit saxlaya biləcəklər.

# Bitkoinlərlə hesablaşmalar vergiyə cəlb oluna bilər

Yaponiya hökuməti kriptovalyuta bitkoinləri (elektron pullar) ilə aparılan bəzi əməliyyatlara vergi tətbiq olunmasının zəruriliyini bəyan etmişdir. Nazirlər Kabinetinin katibi Yosixite Suqanın rəyinə görə, transaksiyalar hər hansı gəlirin əldə edilməsinə səbəb olursa, həmin əməliyyatlardan vergi tutulmalıdır. Bunun üçün Yaponiya hökuməti dünya üzrə bitkoinlərin dövriyyəsini qiymətləndirməlidir. Bunu dəqiq müəyyənləşdirmək hələ mümkün olmamışdır, amma bəzi hesablamalara görə, buraxılmış kriptovalyutanın həcmi artıq 7 milyard dollardır.

Yaponiya hökumətinin bəyanatı ölkədə fəaliyyət göstərən ən böyük bitkoinlər birjası olan MtGox özünü müflis elan etdikdən sonra səslənmişdir. Hakerlərin müdaxiləsi nəticəsində birja istifadəçilərinə məxsus təqribən 750 min bitkoin itirilmişdir.

# «Bavariya»nın prezidenti azadlıqdan məhrum edilmişdir

***Münhendə başa çatmış məhkəmədə «Bavariya» futbol klubunun prezidenti Uli Heness 27 milyon avro məbləğində vergi ödəməkdən yayınmaqda təqsirli bilinmişdir. Bu vergi borcu İsveçrə banklarındakı gizli hesablarda yerləşdirilmiş vəsaitlərdən yaranmışdır.***

Uli Heness məhkəmənin hökmünü sakit qarşılamışdır. O arxayın idi ki, könüllü təslim olmaq ciddi cəzadan yaxa qurtarmağa imkan yaradacaq. Onun vəkilləri isə şərti cəza müddətinin veriləcəyinə ümid bəsləyirdilər.

Prokurorluq əvvəlcə Henessə 7 il iş kəsilməsini tələb edirdi, lakin məhkəmənin qərarında bu müddət yarıyadək endirilmişdir.

*Xarici ölkələrin təcrübəsi:*

# Gürcüstan Respublikasının vergi sistemi : islahatlar

Azərbaycanın şimal-qərb qonşusu olan Gürcüstan Respublikası iqtisadiyyatında 2012-ci ildə ÜDM-in artım tempi 6,1% olmuş və 15,8 mlrd. ABŞ dolları təşkil etmişdir. Ölkədə adambaşına düşən ÜDM-in həcmi 3520 ABŞ dollarıdır. Gürcüstan iqtisadiyyatının əsas hissəsini xidmətlər (68,4%) və sənaye (23,1%) təşkil edir. 2012-ci ildə dövlət büdcəsinin gəlirləri 4,6 mlrd. ABŞ dolları, xərcləri isə 3,9 mlrd. ABŞ dolları olmuşdur. Ölkədə inflyasiya 0,9%, işsizlik 15%-dir. Qanunvericilikdə təsbit olunmuş minimum əməkhaqqı özəl sektorda işləyənlər üçün aylıq 90 Gürcüstan larisi (54 dollar), dövlət sektorunda işləyənlər üçün aylıq 115 Gürcüstan larisi (68 dollar) müəyyən olunmuşdur.

Gürcüstanın vergi sistemində islahatlar üç mərhələdə həyata keçirilmişdir:

1-ci mərhələdə (2004-2007-ci illər) 14 vergi növünün ləğv edilməsi ilə faktiki vergi yükü aşağı salınmış, vergi və gömrük orqanları Maliyyə Nazirliyinin tərkibinə birləşdirilmişdir. Nəticədə vergi daxilolmalarının ÜDM-ə nisbəti 12%-dən 21,6%-ə yüksəlmişdir.

2-ci mərhələdə (2007-2009-cu illər) Gəlirlər Xidməti yaradılmış, elektron xidmətlərdən istifadə imkanları artırılmış, mənfəət vergisinin dərəcəsi 20%-dən 15%-ə, gəlir vergisinin dərəcəsi 25%-dən 20%-dək aşağı salınmışdır.

3-cü mərhələdə (2010-2011-ci illər) yeni beynəlxalq təcrübəyə əsaslanan Vergi Məcəlləsi qəbul edilmiş, kiçik və orta sahibkarlığın stimullaşdırılması məqsədilə xüsusi vergi rejimlərinin tətbiqi ilə güzəşt imkanları yaradılmışdır.

Hazırda Gürcüstan Gəlirlər Xidməti (GGX) bütün Gürcüstan ərazisində sahibkarlığın dəstəklənməsini, yeni sahibkarlıq subyektlərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasını və ədalətli, asan, etibarlı vergi sisteminin formalaşmasını təmin edən, Maliyyə Nazirliyi tərkibində fəaliyyət göstərən dövlət orqanıdır. Gürcüstan Gəlirlər Xidməti gəlir vergisi, mənfəət vergisi, ƏDV, aksizlər, daşınmaz əmlak üzrə vergiləri idarə etməklə yanaşı, gömrük rüsumları, dövlət təminatları, mərc oyunlarına nəzarət kimi qeyri-vergi funksiyalarını da həyata keçirir.

GGX-nin vergi əməkdaşlarının sayı 3015, vergi ödəyicilərinin sayı isə 186.130 təşkil edir. Vergi ödəyicilərinin 0,55%-i ƏDV məqsədləri üçün qeydiyyatdan keçib.

2012-ci ildə Gürcüstan Gəlirlər Xidmətinin xətti ilə 4,1 mlrd. dollar (o cümlədən birbaşa vergilər - 37,6%, dolayı vergilər - 49,4%, digər - 13,0) həcmində, 2011-ci illə müqayisədə 14% artıq vergi toplanmışdır. Ümumilikdə islahatdan əvvəlki dövrlə (2003-cü il) müqayisədə vergi daxilolmaları 5 dəfədən çox artmışdır. 2012-ci ildə vergi daxilolmalarının ÜDM-ə nisbəti 25,9% (o cümlədən birbaşa vergilər - 9,7%, dolayı vergilər - 12,8%, digər 3,4%) olmuşdur.




***Mənfəət vergisi:*** Gürcüstanda mənfəət vergisi təsnifat baxımından klassik xarakter daşıyır. Belə ki, müəssisənin mənfəəti müəssisə səviyyəsində vergiyə cəlb olunduqdan sonra xalis mənfəətdən səhmdarlara ödənilən dividend bir daha vergiyə cəlb olunur.

Vergi ödəyiciləri birgə səhmdar cəmiyyətləri və məhdud məsuliyyətli cəmiyyətlərdir. Dövlət qeydiyyat ünvanı və ya effektiv idarəetmə yeri Gürcüstanda yerləşən müəssisələr rezident müəssisələr hesab olunur.

Mənfəət vergisi məqsədləri üçün rezident müəssisə və daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezidentlərin bütün dünya üzrə əldə etdiyi mənfəət, qeyri-rezidentlərin isə yalnız Gürcüstan mənbəyindən əldə etdiyi mənfəət vergitutma obyektidir.

Vergitutma bazası müəssisənin əldə etdiyi məcmu gəlirə Vergi Məcəlləsinin yol verdiyi qanuni çıxılmaların tətbiq edilməsi üsulu ilə müəyyən edilir. ƏDV ödəyicisi olmayan vergi ödəyiciləri gəlir və xərclərin uçotu məqsədilə kassa və hesablama metodunu, ƏDV ödəyiciləri isə yalnız hesablama metodunu tətbiq edə bilərlər.

Kapital artımı adi sahibkarlıq gəliri kimi ümumi mənfəət vergisi dərəcəsi ilə vergiyə cəlb olunur.

Gürcüstan vergi qanunvericiliyinə əsasən, rezident və qeyri-rezident müəssisələrdən alınmış dividendlər, tibb və kənd təsərrüfatı xidmətindən əldə olunan və müvafiq vergi ilinin sonundan 3 il müddətə yenidən kapitallaşdırılmış mənfəət, dövlət qiymətli kağızlarından əldə olunan faizlər, lisenziyalı maliyyə institutlarından əldə olunan faizlər, azad sənaye zonalarında fəaliyyət göstərən müəssisələrin icazə verilən fəaliyyətlərindən əldə olunan mənfəət vergisi məqsədləri üçün vergidən azad olunan gəlirlərə daxil edilir.

Müəssisələr sahibkarlıq məqsədilə çəkilmiş xərcləri gəlirdən çıxmaq hüququna malikdirlər. Aşağıdakı xərclər müəyyən hədlər daxilində çıxıla bilər:

- təmsilçilik xərclərinin 1%-i məcmu gəlirdən çıxıla bilər;
- xeyriyyə məqsədilə verilmiş ianələr vergitutma bazasının 10%-i həcmində vergiyə cəlb olunan gəlirdən çıxıla bilər;
- əsas vəsaitlərin ötən ilin sonuna qalıq dəyərinin 5%-i həcmində təmir xərcləri (bundan artıq məbləğ amortizasiya vasitəsilə çıxılır).

Əmlakın lizinq müqaviləsi əsasında alınması zamanı il ərzində sərf olunmuş xərclər mühasibatlıq ilinin sonuna qalıq dəyəri kimi hesablanır. Bu cür xərclərin 15%-i gəlirdən çıxılır. Müqavilənin erkən pozulması zamanı əsas vəsaitin balans dəyəri sıfır olur və bu halda çıxılmaya yol verilmir.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:**
1.Orta əsrlərdə cəngavər döyüşlərindən sonra qalib şəxsə bu qabda şərab verilirdi. XIX əsrin ortalarından isə idman yarışlarında hədiyyə kimi verilməyə başlandı; 2.Polyak xalq rəqsi. Özünə xas ayaq və topuq vuruşlarıyla, ənənəvi olaraq tuluq zurnası musiqisinin müşayiətilə rəqs edilir; 3.Rusiyanın Murmansk vilayətində çay; 4.Qədim inanca görə tanrıdan xəbər gətirən carçı; 6.Bütün yaş qrupları üçün nəzərdə tutulan yapon animasiyası; 7.Dörd nəfərdən ibarət musiqi qrupu; 8.Tədris-təcrübə məşğələlərinin bir forması; 13.Hərbi rütbə; 14.Cənubi Koreyanın genişprofilli sənaye konserni; 16.Meymun cinsi; 17.İspan dilindən tərcümədə «bel daşı» mənasını verir. Muncuqlarda, medalyonlarda və üzüklərdə istifadə olunur. Böyrək ağrılarını aradan qaldırmaq, dərini cavanlaşdırmaq, qırışıqları hamarlamaq xüsusiyyətinə malikdir; 19.Rusiyanın futbol klubu; 21.Yaponiyada şəhər; 22.İstehsalatda məhsulların nəqli üçün istifadə olunan detal.

**Soldan sağa:**
1.Musiqi alətlərinin köklənməsi üçün istifadə olunan qurğu; 5.Maliyyə qurumu; 9.Azərbaycan paytaxtında qəsəbə; 10.Bir cəmiyyətin yüksək ixtisaslı şəxsləri və ya hakim dairələrə təsir göstərmək imkanına malik qruplar və ya təbəqələr; 11.Krımın şərq hissəsində qədim şəhər; 12.Bədənin inkişafdan qalmış hissəsi; 14.Ofis texnikası; 15.Monqol qəbiləsi; 18.Avtomobil markası; 20.Kişilər üçün ziyafət kostyumu; 23.Qəhvəyi rəngli piqment; 24.Karyerasını başa vurmuş məşhur Braziliya futbolçusu, mərkəz hücumçusu mövqeyində oynayırdı; 25.Cənubi Asiyada çay; 26.Musiqi termini. Leqatonun əksi.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Palıd; 2.Larozit; 3.Opel; 4.İmişli; 6.Teyde; 7.Siamanq; 8.Pleyboy; 13.Diftonq; 14.Noutbuk; 16.Profaza; 17.Araqua; 19.Etnos; 21.Adıça; 22.Eyda.

**Soldan sağa:** 1.Paleolit; 5.Atos; 9.Larçemi; 10.Leyla *(Şıxlinskaya)*; 11.Dizə; 12.Klaypeda; 14.Nitrid; 15.Torpaq; 18.Uvertüra; 20.Sona *(Hacıyeva)*; 23.Benin; 24.Qaytağı; 25.Kosa; 26.Katakana.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

## idman

# Velosiped idmanı üzrə Federasiya Kuboku uğrunda yarışlar başa çatıb



*Azərbaycan Velosiped İdmanı Federasiyasının illik təqvim-planına əsasən, martın 26-da mounten bayk (dağ velosipedi) üzrə Açıq Federasiya Kuboku yarışı keçirilib. Turnir gələn il Azərbaycanın qəbul edəcəyi ilk Avropa Oyunlarının mounten bayk yarışlarının keçirilməsi planlaşdırılan ərazidə baş tutub.*

Beynəlxalq Velosipedçilər İttifaqının qaydalarına əsasən təşkil olunan yarışda 30-a yaxın idmançı iştirak edib. Onlar hər biri 3,5 km-dən ibarət 4 dövrədə mübarizə aparıblar.

«Synergy Baku» kontinental velosiped komandasının üzvü, özünü mounten bayk yarışlarında sınayan Aqşin İsmayılov bu növdə də bacarıqlı olduğunu sübut edib. O, bütün rəqiblərini qabaqlamaqla Federasiya Kubokunun qalibi olub. 2-ci yeri Aqşin Bağırlı, 3-cü yeri isə Orxan Məmmədov tutub. Qaliblər Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən medal və pul mükafatı ilə təltif ediliblər.

Qeyd edək ki, martın 24-də Xızıda velosiped idmanının şose növü üzrə Federasiya Kuboku yarışı da başa çatıb. Azərbaycan Velosiped İdmanı Federasiyasının illik təqvim planına əsasən fərdi növlər üzrə təşkil olunan yarışda qurumun nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin müxtəlif yaş qrupları üzrə 70-dən artıq idmançısı iştirak edib.

Yürüş zamanı Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) qaydaları tətbiq olunub. Proqrama əsasən, yarışın ikinci günündə Elit, U-23 və gənclər dağa fərdi ötüşmədə (2x5 km), U-17 və qızlar isə 5 km məsafədə yarışıblar.

Nəticələrə gəlincə, gözlənildiyi kimi, ölkəmizin ilk peşəkar kontinental velosiped klubu «Synergy Baku»nun üzvləri Tural İsgəndərovla Aqşin İsmayılov favorit statusunu doğrulddular. Azərbaycanın U-23 milli komandasının da üzvü olan Tural 29 dəqiqə 7 saniyə göstərici ilə birinci olub. Azərbaycanın Elit milli komandasının üzvü Aqşin İsmayılov isə çempiona 2 dəqiqə 14 saniyə uduzmaqla 2-ci yeri tutub. İlk üçlüyü Fərid Mustafazadə tamamlayıb - 33 dəqiqə 16 saniyə.

17 yaşlılar arasında «Lokomotiv» klubunun üzvü Kərim Şirəliyev digər rəqiblərindən daha yaxşı çıxış edib - 16 dəqiqə 22 saniyə. O, 2-ci yeri tutan «Sumqayıt» Velosiped İdman Klubunun təmsilçisi Şamil Rəhimovu 8 saniyə qabaqlayıb. Qızlar arasında isə Sevinc Əzizova hamıdan yaxşı nəticə göstərib.

Yarışın təşkilində əsas məqsəd velosiped idmanının populyarlaşmasına və kütləviliyinə nail olmaq, həmçinin yığma komandalara namizəd velosipedçilərin hazırlıq səviyyəsini yoxlamaqdır. Qaliblər Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən medal, diplom və pul mükafati ilə təltif ediliblər.

# Güləşçilərimizin Avropa çempionatında uğurlu startı

*Finlandiyanın Vantaa şəhərində böyüklər arasında güləş üzrə Avropa çempionatı keçirilir. Çempionatın ilk günündə 65 və 97 kq sərbəst, 48 və 58 kq qadın güləşçilər mübarizə aparıblar.*

65 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Olimpiya çempionumuz Toğrul Əsgərov ümidləri doğrultmasa da həmin gün tatami üzərinə çıxan digər güləşçilərimiz yüksək nəticə əldə ediblər.

97 kq çəki dərəcəsində çıxış edən Xetaq Qazyumov dalbadal üç rəqibini böyük üstünlüklə məğlub edərək, finala vəsiqə qazanıb.

48 kq çəki dərəcəsində Azərbaycan təmsilçisi Mariya Stadnik də ilk qarşılaşmalarda rəqiblərinə aman verməyərək, finala qədər irəliləyə bilib.

Daha bir qadın güləşçimiz - 58 kq-da mübarizə aparan İrina Metreba da bu çəki dərəcəsində ən yaxşıların olduğunu sübut edib. İdmançımız rəqiblərinə heç bir şans verməyərək, finala çıxmağı bacarıb

# «Baku Fires» italyanları «quru» hesabla məğlub etdi

*Quba Olimpiya İdman Kompleksində Dünya Boks Seriyası (WSB) Liqasının dörddəbir final mərhələsi çərçivəsində Azərbaycanın «Baku Fires» komandası ilə İtaliyanın «Dolce Gabbana İtalia Thunder» kollektivi arasında ilk görüş keçirilmişdir.*



Rinqə ilk olaraq Hamza Nametov (49 kq) və Mark Antoni Bariqa çıxmışlar. Bu döyüş həmyerlimizin qələbəsi ilə başa çatmışdır. Növbəti döyüşdə digər boksçumuz Məhəmməd Qurbanov (56 kq) 2008-ci il Pekin Olimpiadasının finalçısı Xedafi Djelkhirlə mübarizədən üstün ayrılmışdır. 64 kq çəkidə isə Heybətulla Hacəliyev Renato de Donatos üzərində inamlı qələbə qazanmışdır.

Boksçumuz Haybulla Musalovla (75 kq) Boqdan Juratoninin döyüşü də maraqla qarşılanmışdır. 2011-ci ildə Bakıda keçirilən dünya çempionatının bürünc mükafatçısına qarşı döyüşdə də «Baku Fires» təmsilçisi üstün olmuşdur. Digər idmançımız Abdulqadir Abdullayev (91 kq) son döyüşdə qonaq komandanın heyətində ən tanınmış boksçu olan Klemente Russo ilə üz-üzə gəlmişdir. A.Abdullayev ikiqat dünya çempionu, iki dəfə Olimpiya oyunlarının gümüş mükafatını qazanmış italyan boksçuya nokautla qalib gəlmişdir.

Beləliklə, dörddəbir finalın ilk görüşü 5:0 hesabı ilə Azərbaycan boksçularının xeyrinə başa çatmışdır. Cavab qarşılaşması aprelin 5-də İtaliyada keçiriləcəkdir.

## mozaika

# Qiymətli daşlar müalicə edir

sağlam həyat tərzi

*Hələ qədim dövrlərin mütəfəkkirləri İbn Sina, Əbu Reyhan Biruni, Nəsirəddin Tusi, Zəkəriyyə Qəzvini daş-qaşın müalicəvi xassələrindən bəhs edən əsərlər yazmışlar və tarix boyunca xalq təbabətinin biliciləri daş-qaşlardan müalicə məqsədi ilə istifadə etmişlər.*



Şərqdə daha çox məşhur olan firuzə insanlara nikbin, xoş əhval-ruhiyyə bəxş edən bir daş kimi şöhrət tapmışdır. Təbiblər belə hesab edirlər ki, firuzəyə baxan göz işıqlanır. Bu cəhəti nəzərə alınaraq, göz üçün dərmanlar hazırlanarkən firuzədən istifadə olunmuşdur.

Mirvarini əzərək toz halına salır və isti suda həll edirlər. Onu şərbətə qatır və gündə 3-4 dəfə və hər dəfə 15-20 qram içirlər. Bu, ürək tutmalarının qarşısını almağa kömək edir, ürəyi qüvvətləndirir. Göz xəstəliklərinin müalicəsində də mirvari tozundan istifadə edilir.

Şərq təbiblərinin fikrincə, özü ilə yaqut gəzdirən insanlar gecələr yatarkən qorxulu və pis yuxular görmürlər. Baş ağrısını sakitləşdirmək üçün başa yaqut daşı sürtmək məsləhət görülür. Yaqut ağrıkəsici xüsusiyyətə malikdir və bədənin hər hansı hissəsində olan ağrını maqnit kimi özünə çəkir.

Hind alimlərinə görə, özü ilə yaqut gəzdirən şəxs taun və vəba xəstəliklərinə tutulmur. Yaqutu ağızda saxladıqda ürəyi qüvvətləndirir, əhval-ruhiyyəni yaxşılaşdırır, susuzluğu dəf edir. Onun tozunu şərbətə qatıb içdikdə qanı təmizləyir, zəhərlənmənin qarşısını alır, gözü xəstəliklərdən qoruyur.

Misirdə tünd yaşıl zümrüdün tozundan və ya suda həll olunmuş məhlulundan zəhərlənmələrin müalicəsində istifadə edirdilər. Zümrüd gəzdirən adamların əsəbləri sakit olar, qorxulu yuxu görməzlər. Toz halında zümrüdü müxtəlif maye dərmanlara qatmaqla ondan malyariya, ishal kimi xəstəliklərin qarşısının alınmasında istifadə olunmuşdur.

Əqiq mineralından gözmuncuğu hazırlayıb uşaqların biləyinə, sinəsinə bağlayırlar. Bu, onları bədnəzərdən, gözdəymədən qoruyur. Əqiqin şüanı dəfetmə xüsusiyyətinin kompüter istifadəçilərinə çox xeyri dəyə bilər.

Şəffaf və rəngsiz kvars mineralı fikri dağıdan, üzdəki qırışları yox edən vasitə hesab olunur. Kvarsdan, həmçinin qorxuluğun aradan qaldırılmasında da istifadə edilmişdir.

# Planetin ən ağıllı adamı

maraqlı

*Adı Ginnesin rekordlar kitabına düşən Kim Unq-Yonq planetin ən ağıllı adamı hesab olunur. Onun intellektinin əmsalı 210-a bərabərdir, halbuki intellekt əmsalı 140 olanlar artıq dahi hesab edilirlər.*




1962-ci ilin mart ayında Koreyada anadan olan Kim Unq-Yonq artıq 6 yaşında danışa bilmiş, 3 yaşında isə Koreya, yapon, alman, ingilis və portuqal dillərində fikrini izah etməyə başlamışdır. Hər hansı dili mənimsəmək üçün ona 1 ay kifayət edir. Uşaq vaxtı riyazi təfəkkürünə görə də seçilirdi, beş yaşında mürəkkəb diferensial bərabərlikləri həll edir, şeir yazır və rəsm çəkirdi. Kim Unq-Yonq səkkiz yaşında NASA təqaüdünə layiq görülərək ABŞ-a köçmüşdür. Kolorado Universitetini 15 yaşında bitirən koreyalı gənc fizika üzrə elmlər doktoru dərəcəsi almışdır. Hazırda elmi fəaliyyətlə məşğul olur və 100-ə yaxın elmi əsərin müəllifidir.

tarix



# Atillanın məzarı

*Türkiyə mətbuatının yazdığına görə, Macarıstanın paytaxtı Budapeştdə Dunay çayı üzərində yeni körpünün təməlini tikən inşaatçılar 6-cı əsrə aid möhtəşəm tarixi türbə aşkar ediblər. Abidə türk tarixi ilə bağlı tədqiqatlar üçün yeni cığırlar açır. Artıq alimlər türbə ilə bağlı fikirlərini bildiriblər.*

«İlkin araşdırma bu türbənin böyük Hun imperatoru Atillanın məzarı olması ehtimalını irəli sürməyə imkan verir. Biz qəbirdə hunların adət-ənənəsi ilə bağlı olan çoxlu at skeletləri, həmçinin müxtəlif silah növləri və artefaktlar tapdıq», - Budapeştdə fəaliyyət göstərən Lorand Eötvös Universitetinin tarixçi alimi və türbəni tədqiq edən mütəxəssis qrupunun üzvlərindən biri Albrext Rümştein bildirib. Tapılan obyektlərə meteor dəmirindən hazırlanmış, Atillanın əfsanəvi «Skiflərin müqəddəs savaş qılıncı» hesab edilən böyük qılınc da daxildir. Əfsanəyə görə, bu qılınc ona Mars tanrısı tərəfindən verilib.

Roma tarixçiləri tərəfindən «Allahın bəlası», «Tanrı qırmancı» ləqəbi verilən Hun hökmdarı Atillanın Orta Asiya mənşəli köçəri tayfalardan olduğu qeyd edilir. 434-cü ildən 453-cü ilə - ömrünün sonuna qədər Hun imperiyasına hökmdarlıq edib. Həm Şərqi, həm də Qərbi Roma imperiyası ərazilərinə çoxlu hücumları sayəsində «Barbarların işğalı» və ya «Böyük köç» adlanan hərəkat baş vermiş, nəticədə german tayfaları Roma imperiyası ərazilərinə köçməyə başlamışlar. Bu, gələcəkdə Roma imperiyasının süqutuna və Avropada Orta əsrlər dövrünün başlanmasına yol açmışdır.

Atilla müasir macarların əksəriyyəti tərəfindən ölkənin banisi hesab edilir.

Bu məzarlığın aşkar edilməsi Hun xalqının və Atillanın özünün mənşəyi və kimliyi haqqında əsrlər boyu mübahisələrə səbəb olan suallara izah və cavab verə bilər. Məzarlıqda aşkar edilmiş saxsı qabların qalıqları, bəzək və zərgərlik əşyaları hunların hələ lazımınca tədqiq olunmamış tarixinin və mədəniyyətinin daha yaxşı öyrənilməsi üçün alimlərə böyük töhfə hesab edilir.

**Müdriklər deyib ki...**

***"Müharibə həyatın qaçılmaz qanunudur. Sülh isə iki müharibə arasında qurulan xoşbəxtlik körpüsüdür"***

**Fridrix Vilhelm Nitşe (1844-1900)**

